*Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.*

*Heydər ƏLİYEV*

ASCO 1858

# DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

26 sentyabr 2019-cu il | № 69-72 (9351) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

### ASCO-nun Texniki direktoru DSX-nın yubiley medalı ilə təltif olunub



*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Xəzər Dəniz Neft Donanması üzrə Texniki direktoru İsrail Bayramov Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyevin əmri ilə "Azərbaycan Dövlət Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019) Azərbaycan Respublikasının yubiley medalı" ilə təltif olunub.*

Səh. 2

### ADDA-ya yüksək balla qəbul olanların sayında bu il də xeyli artım var



*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Azərbaycan Dövlət Dəniz Akademiyasına (ADDA) bu il qəbul olan tələbələr və onların valideynləri ilə görüş keçirilib.*

"Açıq qapı günü"ndə ASCO, Azərbaycan Dövlət Dəniz Akademiyası və Bakı Gəmiqayırma Zavodunun rəhbərliyi və əməkdaşları iştirak ediblər.

Səh. 3

### "ACSC Logistics" MMC 23-cü Qazaxıstan Beynəlxalq Nəqliyyat və Logistika sərgisində iştirak edib



*18-20 sentyabrda Qazaxıstanın Almatı şəhərindəki Atakent Sərgi Mərkəzində 23-cü Qazaxıstan Beynəlxalq Nəqliyyat və Logistika sərgisi keçirilib.*

Sərgidə ölkəmizi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) tərkibinə daxil olan "ACSC Logistics" MMC təmsil edib.

Səh. 4

### Təcrübəli dənizçiyə "Gəmiçilik sahəsində xidmətlərə görə" medalı təqdim olunub



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illik yubileyi ərəfəsində "Gəmiçilik sahəsində xidmətlərə görə" medalına layiq görülən təcrübəli dənizçi Namiq Hüseynqulu oğlu Cəfərova medal və vəsiqə təqdim olunub.*

Səh. 5

### "Make the Earth Smile" sərgisi oktyabrın 5-dək davam edəcək



*"Nargis" Nəşriyyat Evi Dənizkənarı Milli Parkda ətraf mühitin qorunması probleminə həsr edilmiş "Make the Earth Smile" adlı sərgi təşkil edib.*

Səh. 6

### Yelkənçilər məharətlərini nümayiş etdiriblər

*Azərbaycan Yelkənli İdman Federasiyasının (SFA) təşkilatçılığı ilə "Federasiya kuboku 2019" turniri keçirilib.*

Səh. 8



# "Əsrin kontraktı"nın bizim müstəqil tariximizdə xüsusi yeri, xüsusi rolu var



Neftçi peşəsi Azərbaycanda həmişə çox hörmətli peşə olub. Bu gün də belədir, sabah da belə olacaq. Azərbaycan neftçiləri ölkəmizin iqtisadi qüdrətinin artırılması istiqamətində çox böyük işlər görüblər, böyük töhfələr veriblər. Bu gün Azərbaycanın neft-qaz sektoru öz yeni inkişaf dövrünü yaşayır.

Bildiyiniz kimi, dünyada sənaye üsulu ilə ilk neft məhz Azərbaycanda hasil edilmişdir. Bu gün şəhərimizin mərkəzində dünyanın ilk neft quyusu bir turizm obyekti kimi fəaliyyət göstərir. O gündən bu günə qədər Azərbaycanda böyük həcmdə neft hasil edilmişdir. Bildiyiniz kimi, dəniz yataqlarından da dünya miqyasında ilk neft Azərbaycanda hasil edilmişdir və bu gün biz Azərbaycan neft sənayesinin yeni mərhələsinin şahidiyik.

Bu gün Azərbaycan nefti müstəqil Azərbaycan dövlətinə xidmət göstərir. Biz hamımız yaxşı xatırlayırıq ki, "Əsrin kontraktı"nın imzalanması ölkəmizin yeni mərhələyə qədəm qoymasına şərait yaratdı. 1990-cı illərin əvvəllərində gənc müstəqil Azərbaycan dövləti çox böyük çətinliklərlə, çağırışlarla üz-üzə qalmışdı. Ovaxtkı hakimiyyətin səriştəsizliyi, yarıtmaz fəaliyyəti, xəyanətkar addımları ölkəmizi uçurum kənarına qoymuşdu. 1991-1993-cü illər ağır faciəli illər kimi tariximizdə qalacaq. Ölkəmizi böhran bürümüşdü - siyasi, iqtisadi böhran, sənaye iflic vəziyyətdə idi. İqtisadi sahədə yaşanan tənəzzül gənc müstəqil ölkənin inkişafı üçün çox böyük maneələr törədirdi.

Azərbaycan xalqı özünə xas müdriklik nümayiş etdirərək 1993-cü ildə ulu öndər Heydər Əliyevə üz tutub, onu hakimiyyətə dəvət etmişdir. O gündən bu günə qədər Azərbaycan sabitlik dövrü yaşayır, Azərbaycan inkişaf yolu ilə gedir. 1993-cü ildən bu günə qədər aparılan islahatlar, görülmüş işlər Azərbaycanı dünya miqyasında uğurla inkişaf edən ölkə kimi tanıdır. O vaxt iqtisadi və siyasi sahədə yaşanan böhran böyük təhlükə mənbəyi idi. Heydər Əliyevin cəsarəti, uzaqgörənliyi, fədakarlığı Azərbaycanı bütün bəlalardan qoruya bilmişdir. Vətəndaş müharibəsinə son qoyuldu, Azərbaycan islahatlar yoluna qədəm qoydu. Müstəqil dövlətin Konstitusiyası qəbul edildi. Qeyri-qanuni silahlı birləşmələr tərk-silah edildi, ölkədə qayda-qanun yaradıldı. Əlbəttə ki, ölkəmizin gələcək inkişafı ilə bağlı ciddi addımlar atılmalı idi və "Əsrin kontraktı"nın imzalanması bu addımlar sırasında xüsusi yer tutur.

"Əsrin kontraktı"nın imzalanması tarixi hadisədir. Bu kontraktın faydasını bu gün Azərbaycan dövləti, Azərbaycan xalqı görür. Təsəvvür etmək çətindir ki, əgər "Əsrin kontraktı" imzalanmasaydı, Azərbaycan o vaxt nəyin hesabına öz iqtisadi inkişafını təmin edə bilərdi. Biz nəyin hesabına uğurla inkişaf edə bilərdik. "Əsrin kontraktı"nın bizim müstəqil tariximizdə xüsusi yeri, xüsusi rolu var. Bu kontraktın imzalanması da asan məsələ deyildi. Uzun müddət ərzində aparılan danışıqlar nəticə vermirdi. Əlbəttə, hər iki tərəf çalışırdı ki, özü üçün daha əlverişli və məqbul şərtləri əldə etsin. Hesab edirəm ki, biz "Əsrin kontraktı"nın timsalında beynəlxalq əməkdaşlığın müsbət tərəfini görürük. Çünki həm sərmayə qoyan tərəf - investorlar, həm də ki, Azərbaycan dövləti maraqlar balansını taparaq ən məqbul şərtlərlə özləri üçün bu kontraktı imzaladılar. Əgər investorları kontraktların şərtləri qane etməsə, onda əlbəttə ki, heç bir kontraktın imzalanmasından söhbət gedə bilməz. Eyni zamanda, Azərbaycan dövlətinin maraqları da tam şəkildə təmin edildi. Bu gün kontraktın icrasının nəticəsi olan yeniləşən, müasirləşən, güclənən Azərbaycan bu sözlərimin əyani sübutudur.

Mən danışıqların son mərhələsini yaxşı xatırlayıram. Amerikanın Hyuston şəhərində bir aydan çox danışıqlar gedirdi. Bu danışıqlar həlledici rol oynamışdır. Kontraktın qüvvəyə minməsi Azərbaycanı yeni inkişaf yoluna çıxardı və bu gün "Əsrin kontraktı" bizim neft sənayemizin inkişafında öz rolunu oynayır. İki il bundan əvvəl kontraktın müddətinin 2050-ci ilə qədər uzadılması göstərir ki, 1994-cü ildə nə qədər düzgün qərar qəbul edilmişdir.

"Əsrin kontraktı" ulu öndər Heydər Əliyevin neft strategiyasının tərkib hissəsidir, onun başlanğıcıdır. Məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi sayəsində Azərbaycan özünü dünyaya təqdim edə bildi. Tarixdə ilk dəfə xarici şirkətlər Xəzər dənizində neft-qaz yataqlarının işlənilməsində iştirak etməyə başlamışlar. "Əsrin kontraktı"nın imzalanması nəticəsində on minlərlə yeni iş yeri yaradılmışdır. Azərbaycanda minlərlə şirkət bu kontraktın icrasında podratçı kimi fəaliyyət göstərir. Yəni, "Əsrin kontraktı"nın çox böyük faydası var.

Eyni zamanda, o vaxt Azərbaycan dünyada riskli bir ölkə kimi tanınırdı. Ermənistanın ölkəmizin torpaqlarını işğal etməsi, gedən vətəndaş müharibəsi, iqtisadi çətinliklər, bir daha demək istəyirəm ki, Azərbaycanı investisiya üçün əlverişli ölkə kimi təqdim edə bilməzdi. O vaxt ulu öndər Heydər Əliyevin xidmətlərindən biri də o olmuşdu ki, investorları inandıra bilmişdi və Dövlət Neft Şirkətinin rəhbərliyi - bizim dostumuz rəhmətlik Natiq Əliyev, Xoşbəxt Yusifzadə, Valeh Ələsgərov, mən və digər əməkdaşlar çalışırdıq investorları inandıraq ki, Azərbaycana sərmayə qoymaq olar, sərmayə qoymaq lazımdır və Azərbaycana bu gün sərmayə qoyan sabah böyük fayda görəcək. Belə də oldu. "Əsrin kontraktı"nın icrasına qoyulmuş sərmayə artıqlaması ilə qaytarıldı. Xarici investorlar milyardlarla dollar gəlir əldə etdilər. Azərbaycan dövləti yüz milyard dollardan çox gəlir əldə etdi.

Yəni, bir daha demək istəyirəm ki, bu, dünya təcrübəsində özünə layiqli yer tutan kontraktdır. Çünki həm dövlətin, həm də investorların maraqları təmin olundu. Eyni zamanda, neftdən əldə edilmiş gəlirlər ölkəmizin sürətli inkişafına şərait yaratdı. Biz dünyada neft sənayesində gedən işlərdən xəbərdarıq. Bir çox hallarda neft xoşbəxtlik gətirmir, faciə gətirir, qarşıdurma gətirir, qeyri-bərabərlik gətirir, ədalətsizlik gətirir. Azərbaycanın timsalında neft xeyir gətirib. Çünki neftdən əldə edilmiş gəlirlər ümumi inkişafımıza sərmayə kimi qoyuldu. Sosial məsələlərin həlli üçün şərait yaratdı. Ölkəmizin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi üçün imkan yaratdı. Müasirləşən şəhərlər, abadlaşan kəndlər, ölkədə gedən quruculuq, abadlıq - bütün bunların təməlində bizim neft sənayemiz dayanır.

Biz əlbəttə ki, bu gün iqtisadi sahədə şaxələndirmə yolunu seçmişik. Yəni, neftdən asılılığı aşağı salmağa çalışırıq, qeyri-neft sektorunu inkişaf etdiririk. Ancaq bilməliyik ki, bu gün və sabah ölkəmizin aparıcı sektoru neft-qaz sektorudur. Bu gün və sabah ölkəmizin uğurlu inkişafı üçün bizim qəhrəman neftçilərimizin əməyi əvəzolunmazdır. Məhz bizim neftçilərimiz bu gün Azərbaycanın qüdrətini, inkişafını təmin edirlər. Ona görə neft-qaz sektorunun bundan sonra da uğurla inkişafı prioritet məsələlərdən biridir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

*(Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 20-də Heydər Əliyev Mərkəzində "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdəki nitqindən)*

# "Şərq-Qərb", "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri və Azərbaycanın geoiqtisadi maraqları

***Strateji baxımdan mühüm geosiyasi məkanda - Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan çox mühüm beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizlərinin kəsişməsində yerləşməsi Azərbaycanı əsrlər boyu transmilli dünya güclərinin xüsusi maraq dairəsində saxlamışdır. Əlverişli geosiyasi və coğrafi mövqe Azərbaycana malik olduğu zəngin karbohidrogen ehtiyatları qədər yeni dividendlər qazanmaq şansı yaratmışdır. Həm ümummilli lider Heydər Əliyev, həm də Prezident İlham Əliyev mövcud reallığı müstəqil Azərbaycan dövləti üçün əsas şanslardan biri kimi düzgün dəyərləndirərək, ötən 25 ildə bundan həm yeni neft strategiyasının, həm də transmilli nəqliyyat-kommunikasiya siyasətinin həyata keçirilməsində başlıca amil kimi məharətlə istifadə etmişlər. Hazırda Azərbaycanın dünya dövlətləri, güc mərkəzləri ilə münasibətlərinin təməlində məhz üstün geosiyasi, geoiqtisadi və coğrafi reallıqlar dayanır ki, bu da müvafiq olaraq ölkənin strateji maraqlarının yüksək səviyyədə təmin olunmasında aparıcı rol oynayır.***

Bu fikirlər Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənovun "Şərq-Qərb", "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri və Azərbaycanın geoiqtisadi maraqları" sərlövhəli analitik məqaləsində yer alıb. AZƏRTAC məqaləni təqdim edir.

Bir qədər əvvəl yazdığım "Əsrin müqaviləsi" - Azərbaycanı qlobal dünya iqtisadiyyatının tərkib hissəsinə çevirən layihə" adlı məqalədə ölkəmizdə təməli ümummilli lider Heydər Əliyev tərəfindən 1994-cü ildə qoyulmuş yeni neft strategiyası və onun uğurlu nəticələrindən geniş danışmışdım. Bugünkü məqalədə isə həyata keçirilən siyasi strategiyanın digər mühüm istiqamətindən - Azərbaycanın üçüncü minillikdə beynəlxalq nəqliyyat-kommunikasiya qovşağına çevrilməsi ilə bağlı 1993-cü ildən həyata keçirilən dövlət siyasəti və onun görünən nəticələri haqqında bəhs etmək istəyirəm.



Azərbaycanın beynəlxalq nəqliyyat qovşağına çevrilməsi siyasəti, qeyd etdiyim kimi, dövlətin 1993-cü ildən xarici iqtisadi və geosiyasi əlaqələr sahəsində həyata keçirdiyi iki əsas strateji xətdən biri olmuşdur. Mütəxəssislər bu prosesdə Azərbaycanın fəaliyyətində müşahidə olunan bir neçə mühüm istiqaməti xüsusi qeyd edirlər. Bunlar:

- Avropa, Qara dəniz, Qafqaz, Xəzər və Mərkəzi Asiya regionları arasında iqtisadi, ticari, nəqliyyat və logistika əlaqələrinin inkişafından;
- Çin və Avropa İttifaqı arasında ən qısa quru yolu üzərində qurulan multimodal dəhlizin inkişafından;
- "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin qurulmasından;
- Böyük İpək Yolu çərçivəsində tranzit yüklərin cəlb edilməsindən;
- Logistika və ticarət infrastrukturunun əhəmiyyətli dərəcədə təkmilləşdirilməsi və tənzimləyici stimullar sayəsində regionda bu sahə üzrə Azərbaycanın daha cəlbedici qovşaq olmasından;
- Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı və TASİM layihələri vasitəsilə Böyük İpək Yolunun rəqəmsallaşdırılmasından;
- müxtəlif nəqliyyat sahələri arasındakı əlaqələrin koordinasiya edilməsindən;
- yük və sərnişin daşımaları üzrə beynəlxalq və daxili tariflər sahəsində uyğunlaşdırılmış siyasətdən;
- çoxmodallı (birləşmiş) daşımaların təşkil olunması üzrə uyğunlaşdırılmış fəaliyyət proqramının işlənib hazırlanmasından və s. ibarətdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 16 ildə neftdən gələn gəlirlərin də bir qismini cəlb etməklə, ilk növbədə, ölkəni xarici aləmlə bağlayan əksər avtomobil və dəmir yolları, hava və su nəqliyyatı infrastrukturları, quru, hava və su nəqliyyatına aid kommunikasiyalar, rabitə-informasiya texnologiyaları modernləşdirilmiş, yenidən qurulmuş, yaxud hazırda qurulur. Azərbaycanın üç telekommunikasiya peyki - "Azərspace-1", "Azersky" və "Azərspace-2" orbitə çıxarılmış, Xəzər dənizinin dibi ilə Avropanı Asiya ilə birləşdirəcək kommunikasiya vasitələrinin çəkilişinə start verilmişdir. Azərbaycanın regional və beynəlxalq nəqliyyat-kommunikasiya layihələrinin dəstəklənməsi istiqamətində həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasət ölkəmizi qısa müddətdə Avrasiyanın əsas nəqliyyat-kommunikasiya qovşaqlarından birinə çevirmişdir.

XX əsrin son onilliyində Avropa İttifaqının maliyyə yardımı, Azərbaycan, Türkiyə və Gürcüstanın xüsusi səyi ilə reallaşdırılan "İpək Yolu" (TRASEKA) layihəsinə əlavə dəstək olaraq, Azərbaycanın təşəbbüsü-liderliyi ilə inşa olunan və 2017-ci il oktyabrın 30-da istismara buraxılan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu Trans-Avropa-Asiya dəmir yolları şəbəkələrini birləşdirmiş, bununla da qədim İpək Yolunun polad magistrallar üzərində bərpası işi başa çatdırılmışdır.

Məlumdur ki, TRASEKA layihəsinin də əsas təşəbbüskarlarından biri ümummilli lider Heydər Əliyev olmuşdur. Məhz onun təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakı şəhərində 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) dövlət başçılarının, 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndə heyətlərinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilmiş və yekunda Avropa İttifaqının TRASEKA proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Bakı Bəyannaməsi və Çoxtərəfli Saziş" imzalanmış, TRASEKA-nın Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alınmışdır. Həmin dövrdə bəzi regional və beynəlxalq dairələrin əsassız qısqanclığına baxmayaraq, TRASEKA layihəsinin qədim İpək Yolu üzərində yenidən qurularaq əksər region ölkələri üçün çox böyük əhəmiyyət kəsb etməsi sübuta yetirilmişdir. Bu layihənin cəlbediciliyi, ilk növbədə onunla ölçülürdü ki, o, eyni zamanda, Rusiyanın, Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistanın, həmçinin Əfqanıstanın daha əlverişli dəhliz vasitəsilə Avropa və dünya bazarlarına, o cümlədən geriyə çıxışını asanlaşdırırdı, onların ticarət əlaqələrinin, iqtisadiyyatlarının inkişafına, dünya iqtisadiyyatı ilə inteqrasiyasına mühüm şərait yaradırdı.

***(Davamı 2-ci səhifədə)***

# Prezident İlham Əliyev: “Azərbaycanın Xəzəryanı ölkələrlə dostluq və mehriban qonşuluq münasibətləri uğurla inkişaf edir”

***“İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 88-ci kitabı çapdan çıxıb.***

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 88-ci kitabındakı materiallar 2018-ci ilin iyunundan avqust ayınadək olan dövrü əhatə edir. Həmin dövrdə Azərbaycanın uğurla təmsil olunduğu tədbirlərdən biri Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısı olub. Prezident İlham Əliyev Zirvə toplantısında çıxış edərkən Azərbaycanın Xəzəryanı ölkələrlə dostluq və mehriban qonşuluq münasibətlərinin uğurla inkişaf etdiyini bildirib. Dövlətimizin başçısı vurğulayıb ki, ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələri Xəzər dənizində sabitliyin və təhlükəsizliyin mühüm amilidir. Prezidentin Zirvə toplantısında dərin məzmunlu çıxışının mətni 88-ci kitaba daxil edilib.




Kitabda Prezident İlham Əliyevin NATO-nun Zirvə toplantısında iştirak etmək üçün Brüsselə səfəri çərçivəsində keçirdiyi görüşləri barədə informasiyalar, NATO-nun Əfqanıstanda qətiyyətli dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə çıxışının mətni, Fransa və Qazaxıstana səfərlərindən bəhs edən materiallar yer alıb.

Oxucu nəşrdə dövlətimizin başçısının Azərbaycana səfərə gəlmiş Türkiyə, İtaliya, Tacikistan prezidentləri, Almaniyanın Federal Kansleri ilə apardığı danışıqlar, mətbuata bəyanatların mətnləri, ölkələr arasında saziş və müqavilələrin imzalanmasına dair materiallarla da tanış ola bilər. Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ olaraq qaldırılır ki, bu da hər cilddə öz əksini tapır.

Çoxcildliyin 88-ci kitabında ölkə rəhbərinin Azərbaycan polisinin yaranmasının 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikası polis orqanlarının şəxsi heyətinə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 20 illik yubileyi münasibətilə Konstitusiya Məhkəməsinin kollektivinə təbrik məktubları və digər məktublar yer alıb.

Bu nəşrdə Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında nitqlərinin mətnləri, Şamaxı, İsmayıllı rayonlarına səfərlərinə dair materiallar da toplanıb.

Kitabda “Qeydlər”, “Şəxsi adlar”, “Coğrafi adlar” göstəriciləri verilib.

“Azərnəşr” tərəfindən buraxılan 88-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# “Şərq-Qərb”, "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri və Azərbaycanın geoiqtisadi maraqları

*(Əvvəli 1-ci səhifədə)*

TRASEKA layihəsi işə düşəndən, xüsusən BTQ istifadəyə veriləndən sonra Çindən başlayaraq Orta Asiyaya, Cənubi Qafqaza, sonra da Türkiyə vasitəsilə Avropaya, o cümlədən geriyə daşınan yüklərin çatdırılması müddəti dəniz daşımalarına nisbətən iki dəfədən çox qısalmışdır. Mütəxəssislərin fikrinə görə, bu dəhliz hazırda Avropanı Asiya ilə birləşdirən ən əlverişli, qısa və təhlükəsiz nəqliyyat dəhlizi hesab olunur. Onun vasitəsilə son illərdə daşınan malların həcmi bir neçə dəfə artmış və BTQ qitələri bağlayan ən əlverişli nəqliyyat körpüsü rolunu oynamağa başlamışdır.

Əsas qayəsi regionda və dünyada iqtisadi əlaqələrə, rifaha, sülhə, sabitlik və təhlükəsizliyə xidmət etməkdən ibarət olan BTQ vasitəsilə birinci mərhələdə 5 milyon ton, ikinci mərhələdə 17 milyon ton, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Bakının Qaradağ rayonunun Ələt qəsəbəsində inşa olunan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, bu ərazidə yaradılan Azad Ticarət Zonası və s. mühüm infrastruktur layihələri Azərbaycanın beynəlxalq nəqliyyat qovşağına çevrilməsində xüsusi rol oynamışdır. Azad Ticarət Zonası yaxın gələcəkdə beynəlxalq yükdaşıma və Avropa-Asiya logistika zəncirlərində aparıcı rol oynamaqla yanaşı, həm də yerli istehsalın təşviqi, “Made in Azerbaijan” brendinin dünya üzrə tanınmasına müstəsna xidmət göstərəcəkdir. Azad Ticarət Zonasının regional miqyasda Cənubi Qafqaz, Mərkəzi Asiya, İran, Rusiya və Türkiyənin bir hissəsinin daxil olduğu və 130 milyon insanı əhatə edən bir bazara xidmət göstərməsi planlaşdırılır. Hazırda Azərbaycan Çinin təşəbbüsü ilə gerçəkləşən “İpək Yolu İqtisadi Kəməri” layihəsinin iştirakçısıdır. 2015-ci ilin dekabrında Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində “İpək Yolu İqtisadi Kəməri”nin yaradılmasının birgə təşviq edilməsi barədə Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında qarşılıqlı anlaşma memorandumu imzalanıb.

BTQ layihəsinin ölkəmiz üçün digər geosiyasi üstünlüklərindən biri də ondan ibarətdir ki, Azərbaycan Gürcüstan ərazisindən keçməklə Türkiyə ilə birbaşa dəmir yolu əlaqəsinə sahib olur, bu da müvafiq surətdə qardaş dövlətlər arasındakı münasibətlərin daha da möhkəmlənməsinə xidmət edir. Digər məsələ bu layihənin yaxın gələcəkdə Naxçıvan Muxtar Respublikasına qədər uzadılmasıdır. Layihə çərçivəsində Qarsdan Naxçıvana ayrıca dəmir yolu xəttinin çəkilməsi nəzərdə tutulur ki, bu da muxtar respublikanın Ermənistanın blokadasından çıxarılmasına və onun nəqliyyat müstəqilliyinin təmin edilməsinə şərait yaradacaqdır.

Azərbaycanın üçüncü minilliyin əvvəlindən xüsusi maraq göstərdiyi, son illərdə fəal şəkildə qoşulduğu və bundan sonra funksionallığı ciddi şəkildə yüksələn başqa bir transmilli nəqliyyat layihəsi "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi hesab olunur. Qeyd etmək istəyirəm ki, TRASEKA layihəsində olduğu kimi, Azərbaycan Respublikasının “Şimal-Cənub” nəqliyyat dəhlizinə qoşulması təşəbbüsü də ümummilli lider Heydər Əliyevə məxsusdur. Məhz onun razılığı əsasında 2001-ci ildən başlayaraq Azərbaycan Respublikasını təmsil edən nümayəndələr Rusiya və İranın müvafiq qurumları ilə bu istiqamətdə müzakirələrə qoşulmuşlar. 2004-cü il mayın 19-21 Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycan nümayəndə heyəti Moskva şəhərində keçirilən Rusiya və İran dəmir yolu rəhbərlərinin müşavirəsinə qatılmış və üçtərəfli razılığa müvafiq olaraq “Şimal-Cənub” nəqliyyat dəhlizi üzrə Beynəlxalq Konsorsiumun yaradılmasında iştirak etmişdir. Sonrakı dövrdə hər üç ölkənin dəmir yollarına tranzit yük axınının cəlb edilməsi, birgə layihə-axtarış işlərinin görülməsi, ümumi məsələlərin və birgə işlərin əlaqələndirilməsi istiqamətindəki fəaliyyəti təmin olunmuşdur. 2005-ci il iyulun 24-27-də Tehran şəhərində və 2005-ci il fevralın 9-da Bakıda "Şimal-Cənub" nəqliyyat dəhlizinin tikintisi, gələcək istismarı, beynəlxalq konsorsiumun yaradılması və maliyyələşdirilməsi üsulları, hər bir tərəfin tikintidə payı, qoyulacaq əsaslı vəsaitin qaytarılması yolları və digər məsələlər müzakirə edilmiş və razılığa gəlinmişdir.



Məlum olduğu kimi, Hindistan, Pakistan, İran, Azərbaycan, Rusiya və Şimali Avropa ölkələrini birləşdirəcək "Şimal-Cənub" nəqliyyat dəhlizi haqqında ilk razılaşma aktı Rusiya Federasiyası, İran İslam Respublikası və Hindistan arasında 2000-ci il sentyabrın 12-də Sankt-Peterburq şəhərində imzalanmışdır. Azərbaycan, qeyd edildiyi kimi, bu sazişə beş il sonra - 2005-ci ildə qoşulmuşdur. Sonrakı illərdə, ümumilikdə, 13 dövlət bu sazişə imza atmış və müvafiq olaraq ratifikasiya etmişdir. Bunlar Azərbaycan, Belarus, Bolqarıstan, Ermənistan, Hindistan, İran, Qazaxıstan, Qırğızıstan, Oman, Rusiya, Tacikistan, Türkiyə və Ukraynadır.

Mütəxəssislərin fikrinə görə, "Şimal-Cənub" nəqliyyat dəhlizinin əsas məqsədi, ilk növbədə, cənubdan - Hindistandan başlayaraq Rusiyaya, Şimali və Qərbi Avropaya, eləcə də Körfəz ölkələrinə daşınan yüklərin çatdırılma müddətini azaltmaq, daşıma qiymətlərini ucuzlaşdırmaq və dəhlizin funksionallığını artırmaqdan ibarətdir. Dəhliz bir neçə əsas istiqamət: Hindistan-Rusiya-Qafqaz-Körfəz ölkələri; Mərkəzi Asiya-Körfəz ölkələri; Xəzər dənizi-İran İslam Respublikası-Körfəz ölkələri və s. üzrə yükdaşıma fəaliyyətini nəzərdə tutur. Bu istiqamətlər içərisində Azərbaycan üçün ən maraqlı istiqamət yüklərin gəmilərlə Hindistanın Mumbay limanından İranın Bəndər-Abbas limanına gətirilməsi, sonra qatar və avtomobillərlə İranın mövcud dəmir və avtomobil yolu ilə Qəzvin-Rəşt-Astara (İran) - Astara (Azərbaycan) dəmir və avtomobil yoluna ötürülməsi və burdan da Azərbaycan vasitəsilə Rusiyaya, Şimali Avropa ölkələrinə və s. çatdırılmasıdır. Hazırkı marşrut üzrə (Süveyş kanalı) malların çatdırılma vaxtı 45-60 gündür, “Şimal-Cənub” nəqliyyat dəhlizi vasitəsilə isə bu müddətin 14-20 gün olması gözlənilir.

Azərbaycan Hökuməti “Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi”nə uyğun olaraq, sonrakı müddətdə “Şimal-Cənub” nəqliyyat dəhlizinin yaradılması prosesində fəal rol oynamış, ölkənin hər iki transkontinental dəhlizin kəsişməsində, Avrasiya coğrafiyasının mərkəzində mühüm nəqliyyat-logistika qovşağına çevrilməsinə nail ola bilmişdir. Dəhlizin Azərbaycan ərazisindən keçən hissəsində yaxın müddətdə gözlənilən yük daşımalarının həcmi təxminən birinci mərhələdə - 3 milyon ton, ikinci mərhələdə - 5-8 milyon ton və üçüncü mərhələdə - 15 milyon ton nəzərdə tutulur ki, buna nail olmaq istiqamətində də ciddi addımlar atılır.Hazırda mövcud nəqliyyat dəhlizinin reallaşması üzrə işlər çox intensiv şəkildə gedir və Azərbaycan hissəsində proses artıq son mərhələyə qədəm qoymuşdur. Astara (AR) - Astara (İİR) dəmir yolu xəttinin Astaraçay üzərindəki körpüyə qədər olan 8,3 kilometr yeni yolun, Astaraçay üzərindəki körpü və İran ərazisindəki 1,4 kilometr yolun tikintisi tamamlanmışdır. Bu dəhlizin Qəzvin-Rəşt (175 km) hissəsinin tikintisi ilə bağlı İran tərəfi ilə danışıqlar aparılır və işlər başlanmaq üzrədir. Azərbaycan bu dəmir yolunun tikintisinin maliyyələşdirilməsində də iştirak edir. Rəsmi Bakı İran tərəfinə bəhs olunan dəmir yolunun tikintisi və avadanlıqla təchiz olunması layihəsi üzrə 500 milyon dollar dəyərində kredit ayırmağı nəzərdə tutub. Digər bir istiqamət - Şimal istiqaməti üzrə, Samur çayı üzərindən Samur (Azərbaycan) – Yaraq Qazmalar (Rusiya) avtomobil körpüsünün inşası və dəmir yolu xətlərinin genişləndirilməsi ətrafında iş gedir. Dəhlizin önəmli hissəsi olan Azərbaycan-Rusiya sərhədindən Azərbaycan-İran sərhədinə qədər dəmir yolu istismara tam hazır vəziyyətə gətirilib.

Azərbaycan “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsinə qoşulmaqla, ilk növbədə, özünün həm Rusiya, həm də İranla quru sərhədinin əlverişli coğrafi xarakteristikasından səmərəli istifadə edərək üçtərəfli regional əməkdaşlığı inkişaf etdirmək və mövcud şəraitdən bəhrələnərək yeni-yeni dividendlər əldə etmək istəyir. Bundan başqa, Azərbaycan gələcəkdə bu istiqamətdə qonşu Gürcüstanın ərazisini və kommunikasiyalarını da işə salmaqla “Şimal-Cənub” və “Şərq-Qərb” nəqliyyat dəhlizlərinin inteqrasiyasını sürətləndirməyi nəzərdə tutur. Bu sahədə ən önəmli rolu, ilk növbədə, BTQ, Bakıdan Gürcüstandan keçməklə Türkiyəyə qədər uzanan avtomobil yolları, Xəzər dənizində və Qara dənizdə Azərbaycanın inşa etdiyi limanlar, o cümlədən Türkiyə və Gürcüstan ərazisindəki dəniz və dəmir yolu limanları oynayacaqdır. Dəhlizin yaradacağı imkanlardan Azərbaycanla yanaşı, Rusiya, İran, Gürcüstan, Türkiyə, Avropa ölkələri, Çin, Qazaxıstan və digər Orta Asiya respublikaları da istifadə edəcəklər.

Bundan başqa, xüsusi qeyd edilməlidir ki, “Şimal-Cənub” dəhlizi layihəsi Azərbaycan Respublikası, İran İslam Respublikası və Rusiya Federasiyası ərazisində dəmir yolu əlaqələrinin, həmçinin bu ölkələrin tranzit və iqtisadi potensialının gücləndirilməsinə xidmət edəcək, beynəlxalq yüklərin bu istiqamətə daha çox miqdarda axınına təkan verəcək. Azərbaycanın bu dəhlizdən gözləntiləri xüsusən çoxdur. “Şimal-Cənub” nəqliyyat dəhlizi Şimali Avropanı Cənub-Şərqi Asiya ilə birləşdirir. Proqnozlar göstərir ki, tam gücü ilə fəaliyyət göstərəcəyi təqdirdə bu dəhliz Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Körfəz ölkələrinə və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaradacaqdır. Həmin dəhliz Avropa-Cənubi Asiya və Yaxın Şərq arasında dəmir yolu daşımalarını, müvafiq olaraq dəmir yolunun istər yerli, istərsə də tranzit daşımalarından əldə etdiyi gəlirləri artırmağa imkan verəcəkdir.

Son dövrlərdə “Şimal-Cənub” nəqliyyat dəhlizi layihəsinin keçəcəyi regiondakı fərqli qütblər arasındakı geosiyasi rəqabətin daha da kəskinləşməsi fonunda, Azərbaycan həm özünün multikultural və sabit ictimai-siyasi cəmiyyət həyatı ilə, həm də yürütdüyü balanslı xarici siyasət və tərəfdaşlıq kursu ilə xüsusi iqtisadi-siyasi dividendlər qazanmağı hədəfləyir. Bu hədəflərin ən mühümü, iqtisadi sahədə fəaliyyətin şaxələndirilməsi, post neft dövründə ölkəmiz üçün qeyri-neft sahəsindəki fəaliyyətdən əlavə gəlir mənbəyi əldə etməkdirsə, siyasi və geosiyasi sahədə regionda müstəqil siyasət yürüdən dövlət imicini qorumaq, regionda və dünyada bir-birinin daxili işlərinə qarışmamaq prinsipinə, təhlükəsizlik sahəsində hamılıqla beynəlxalq hüquq normalarına əməl etmək və s. ibarətdir.

Azərbaycan “Şimal-Cənub” nəqliyyat dəhlizinin xüsusi əhəmiyyətini nəzərə alaraq, son dövrdə İran və Rusiya istiqamətində yeni kommunikasiyaların yaradılmasına xeyli investisiya yatırmışdır ki, bu da ölkənin beynəlxalq aləmdəki etibarlı tərəfdaş imicini gücləndirmişdir. Bundan əvvəl, ölkəmizin liderliyi ilə BTQ-nin və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikilib istifadəyə verilməsi, bu məkanda azad iqtisadi zonanın yaradılması, Azərbaycanı bir tərəfdən Mərkəzi Asiyanı Qərblə (Türkiyə və Avropa İttifaqı), digər tərəfdən Cənubi Asiyanı (İran və Hindistan) Şimalla birləşdirən nəqliyyat qovşağının mərkəzinə çevirmişdir. Hazırda beynəlxalq siyasi arenada baş verən gərginliklər “Şimal-Cənub” layihəsinin reallaşması işini bir qədər gecikdirsə də, bu problemin Azərbaycanla bağlı olmadığı aydındır. Azərbaycan Respublikası öz öhdəsinə düşən bütün infrastruktur layihələrini uğurla həyata keçirmiş və istismara qəbul etmişdir.

***Əli Həsənov,***
*Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor*

# Türkmənistan-Azərbaycan iqtisadi əməkdaşlığına dair müzakirələr aparılıb

***Sentyabrın 13-də Aşqabadda Türkmənistan-Azərbaycan İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının beşinci iclası keçirilib.***



İclasda Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Yaqub Eyyubovun və Türkmənistan Nazirlər Kabinetinin sədr müavini Purli Ağamuradovun rəhbərlik etdiyi nümayəndə heyətləri iştirak edib.

Görüşdə tərəflər Azərbaycan və Türkmənistan arasında qardaşlıq, mehriban qonşuluq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan yüksək səviyyəli əməkdaşlığı qeyd ediblər.

Komissiyanın əvvəlki iclasında əldə olunmuş razılaşmaların icrası ilə bağlı fikir mübadiləsi aparılıb. İki ölkənin müvafiq nazirlik və idarələri arasında qarşılıqlı fəaliyyətin dərinləşdirilməsi, habelə işgüzar dairələrin tərəfdaşlığın inkişafı ilə bağlı təkliflər nəzərdən keçirilib.

Tərəflər ticarətin artırılması və müxtəlif profilli müştərək müəssisələrin yaradılması, Bakıda Türkmənistan Ticarət Evinin və Aşqabadda Azərbaycan Ticarət Evinin açılması imkanlarını, Türkmənistan-Azərbaycan işgüzar şurasının yaradılması məsələsini müzakirə ediblər.

Yüksək texnologiyalar və maşınqayırma sahəsi də daxil olmaqla ən yaxşı təcrübə mübadiləsi üçün müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin təşkil edilməsinin zəruriliyi vurğulanıb. Tərəflər iki ölkə arasında avtomobil-bərə və dəmir yolu-bərə xidmətinin yaradılmasında, hava limanları vasitəsilə nəqliyyat əməliyyatlarının aparılması işinin intensivləşdirilməsində də maraqlı olduqlarını bildiriblər.

Görüşdə mədəni və humanitar xarakterli məsələlər də müzakirə edilib. İki ölkə arasında elm, təhsil, idman və turizm sahələrində əməkdaşlığın daha da gücləndirilməsinin zəruriliyi qeyd olunub.

Tərəflər Hökumətlərarası Komissiyanın növbəti iclasının gələn il Bakıda keçirilməsinə dair razılığa gəliblər.

***İlahə Əhmədova***

# Xəzər yalnız ətrafındakı ölkələri yox, həmçinin Avropa və Asiyanı birləşdirir

***Xəzərin hüquqi statusu ilə bağlı Konvensiya Azərbaycan və Rusiya arasındakı ikitərəfli münasibətlərin töhfəsidir. Azərbaycan Xəzəryanı ölkələrin hər biri ilə siyasi və iqtisadi sahədə sıx əməkdaşlıq edir. Bu da Xəzərdə qarşılıqlı təhlükəsizliyin, etimadın təmini üçün mühüm amildir.***




Bu sözləri Xarici İşlər nazirinin müavini, Azərbaycan Respublikası Prezidentinin sərhəd və Xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsi Xələf Xələfov sentyabrın 19-da IX Beynəlxalq “Caspian Energy Forum Baku – 2019”da deyib.

X.Xələfov qeyd edib ki, Xəzərin hüquqi statusu haqqında Konvensiya 3 istiqaməti əhatə edir: “Birincisi regionda əməkdaşlığın daha da möhkəmlənməsidir. Bu Xəzəryanı ölkələr arasında siyasi dioloqun, beynəlxalq münasibətlərin inkişafına təkan deməkdir. İkinci istiqamət iqtisadi, üçüncü istiqamət isə ekoloji əməkdaşlığın möhkəmlənməsinə xidmət edir. Xəzərin ekoloji hüququnun formalaşması burada həyata keçirilən bütün layihələrin beynəlxalq ekologiya standartlarına cavab verməsinə səbəb olacaq. Xəzər yalnız ətrafındakı ölkələri yox, həmçinin Avropa və Asiyanı birləşdirir”.

# ASCO-nun Texniki direktoru DSX-nın yubiley medalı ilə təltif olunub

***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin (ASCO) Xəzər Dəniz Neft Donanması üzrə Texniki direktoru İsrail Bayramov Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyevin əmri ilə "Azərbaycan Dövlət Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019) Azərbaycan Respublikasının yubiley medalı" ilə təltif olunub.***



İsrail Bayramov sərhədçilərlə əməkdaşlıq etdiyinə görə bu medala layiq görülüb.

Qeyd edək ki, istər dəniz, istər quru, istərsə də hava sərhədlərimizi yüksək səviyyədə qoruyan sərhədçilərimiz Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyini böyük təntənə ilə qeyd edirlər. Azərbaycan sərhəd mühafizəsinin şanlı tarixi yalnız sərhədçilərimiz üçün deyil, xalqımız və qədim ənənələrə malik dövlətçilik tariximiz üçün də əhəmiyyətlidir.

# Yeni bərə əlaqəsini Limassol və Pirey limanları idarə edəcək

***Yunanıstan Kiprlə sərnişin bərəsini 2020-ci ilin mayında yenidən təşkil etmək niyyətindədir.***



Bu barədə Kiprin Dənizçilik nazirinin müavini Natasa Pilides deyib. Onun sözlərinə görə, araşdırmalar və sorğuların nəticəsi olaraq dəniz xəttinin bərpa olunması gələn il üçün münasibdir. Layihənin maliyyələşməsi ilə bağlı nazirlik Avropa Komissiyasına müraciət göndərib. Marşrutun istisması üzrə tender elan olunacaq.

Qeyd edək ki, məlumatlara görə, marşrut həftədə bir dəfə may və sentyabr ayları arasında, qış aylarında isə iki həftədən bir fəaliyyət göstərəcək. Dəniz səyahəti 30 saat sürəcək, qiymətlər isə təyyarə ilə uçuşdan aşağı olacaq. Təxmin olunur ki, yeni bərə əlaqəsini Kiprdə yerləşən Limassol və Pirey limanları idarə edəcək.

***İqbal Hacıyev***

# “Steno Impero” tankeri azad edilib

***İran Böyük Britaniyaya məxsus neft tankerini azad edib.***



Bu barədə İran hökumətinin rəsmi nümayəndəsi Əli Rəbbi məlumat yayıb. O qeyd edib ki, məhkəmə araşdırması başa çatıb və Böyük Britaniyanın “Steno Impero” neft tankeri azad edilib. Hökumət nümayəndəsi gəmiyə qarşı hansı cəzanın kəsildiyi barədə heç nə deməyib.

Xatırladaq ki, 2 ay əvvəl Britaniyanın Sahil Mühafizə Qüvvələri İrana məxsus neft tankerini Hibraltarda həbs etmişdi. Bir neçə gün sonra İran da Britaniyaya məxsus gəmini Hörmüz boğazında həbs edib. ABŞ-ın etirazlarına baxmayaraq, 10 gündən sonra Britaniya məhkəməsi İran tankerini azad edib. Sentyabrın 23-də isə İran Britaniyaya məxsus gəmini azad edib.

***Rabil Kətanov***

# ADDA-ya yüksək balla qəbul olanların sayında bu il də xeyli artım var

***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin (ASCO) Azərbaycan Dövlət Dəniz Akademiyasına (ADDA) bu il qəbul olan tələbələr və onların valideynləri ilə görüş keçirilib.***

















“Açıq qapı günü”ndə ASCO, Azərbaycan Dövlət Dəniz Akademiyası və Bakı Gəmiqayırma Zavodunun rəhbərliyi və əməkdaşları iştirak ediblər.

Görüşdə çıxış edən Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru Heydər Əsədov builki tələbə qəbulunun yekunları, Akademiyada tədrisin təşkili, tələbələr üçün yaradılan şərait barədə məlumat verib. Bildirib ki, ADDA-ya yüksək balla qəbul olanların sayında bu il də xeyli artım var. Belə ki, tələbə adını qazananların böyük əksəriyyəti 300-dən çox bal toplayıb.

Rektor qeyd edib ki, ADDA-nın diplomu 170-dən çox ölkədə tanınır və regionda dənizçi kadrları hazırlayan yeganə ali təhsil müəssisəsidir. Burada tədris prosesi beynəlxalq standartlara uyğun, şəffaflıq prinsipi ilə həyata keçirilir.

Heydər Əsədov əlavə edib ki, Akademiyada tələbələr pulsuz dərs vəsaitləri, yataqxana, geyim forması və gündə iki dəfə isti yeməklə təmin olunurlar.

ASCO sədrinin müavini Nəzrəddin Əhmədzadə çıxışına tələbələri və onların valideynlərini təbrik etməklə başlayıb. O bildirib ki, şirkətin qarşısında duran mühüm strateji hədəflərdən biri də güclü kadr potensialının formalaşdırılmasıdır: “Bu səbəbdən Dəniz Akademiyasının tələbələrindən gözləntilərimiz çoxdur. Burada tələbələrin təhsilə maraqlarını artırmaq, onların peşəkar dənizçi kimi yetişmələrinə dəstək olmaq üçün hər cür şərait yaradılıb.”

Nəzrəddin Əhmədzadə ADDA-nın məzunlarının dünyanın hər yerində işləmək imkanlarının olduğunu da bildirib: “Əminəm ki, gələcəyin peşəkar kadrları kimi siz Azərbaycanın mövcud dənizçilik imkanlarını daha da irəliyə apara biləcəksiniz. Bütün dövrlərdə nüfuzlu peşə sayılan dənizçi adına layiq olacaqsınız”.

Bakı Gəmiqayırma Zavodunun baş meneceri İmanverdi Həsənov çıxışında ADDA-nın məzunlarının hər zaman öz bilik və bacarıqları ilə seçildiyini bildirib. Qeyd edib ki, hazırda Bakı Gəmiqayırma Zavodunun əməkdaşları sırasında onlarla Akademiya məzunu var və onlar fəaliyyətlərini uğurla davam etdirirlər.

Daha sonra “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin fəaliyyəti barədə hazırlanan film nümayiş olunub.

Filmdən sonra ADDA-ya yüksək balla daxil olan iki nəfərə tələbə bileti və ASCO rəhbərliyi adından hədiyyələr təqdim olunub.

Bu il 644 balla Akademiyaya qəbul olan Namiq Həsən görüş iştirakçıları ilə sevincini bölüşüb: “Azərbaycan Dövlət Dəniz Akademiyasında təhsil alacağımdan qürur hissi duyuram. Valideynlərimin və müəllimlərimin etimadını doğrultmağa çalışacağam”.

Tədbirdə 2018-ci ildə Akademiyanı 9 tələbənin fərqlənmə diplomu ilə bitirdiyi qeyd olunub. Onlardan dörd nəfərinə ADDA-nın fərqlənmə diplomu təqdim edilib.

Rəsmi hissə başa çatdıqdan sonra görüş qeyri-rəsmi formatda davam etdirilib. Tələbələr və valideynlər onları maraqlandıran suallar və məsələlərlə bağlı rəhbər şəxslərə müraciət ediblər.

# Nəsillərə örnək ömür

***İnsan dünyaya göz açanda onun əməl dəftəri təmiz ağ kağıza bənzəyir. Yaşa dolduqca hər kəsin həyatdakı uğurları, əldə etdiyi nailiyyətləri əməl dəftərinə qeyd olunur. Xeyirxahlıq, nəcib əməllər bu dünyada insanı ucaldan, digərlərindən fərqləndirən ən ülvi duyğulardır. İnsan var Tanrının verdiyi ömür payını elə yaşayır ki, ömrünün sonunadək yaddaşlarda qalacaq bir xoş xatirəsi qalmır. İnsan da var hələ gəncliyindən çalışdığı kollektivdə, yaşadığı şəhərdə çoxlarına kömək olur, darda qalana yol göstərir, bütün mənalı ömrünü xalqının firavan həyatına, cəmiyyətin tərəqqisinə sərf edir. Belə insanlardan biri də Fikrət Cümşüd oğlu Teymurovdur.***



Fikrət Teymurov 23 sentyabr 1944-cü ildə Bakı şəhərində anadan olub. 1951-ci ildə Bakı şəhərindəki 1 saylı orta məktəbə daxil olub və 1961-ci ildə həmin məktəbi bitirib. 1963-1965-ci illərdə hərbi xidməti başa vurduqdan sonra o, 1973- cü ildə Odessa Dəniz Donanması Mühəndisləri İnstitutunun Bakı filialının iqtisadiyyat fakültəsinə qəbul olub və 1979-cu ildə həmin ali məktəbi mühəndis-iqtisadçı ixtisası üzrə bitirib.

Fikrət Teymurov 1974-1977-ci illərdə Xəzər Dəniz Gəmiçiliyinin “Paris Kommunası” adına Gəmi Təmiri Zavodunda təsərrüfat müdiri vəzifəsində çalışıb. 1977-2005-ci illərdə Bakı Limanının Dəniz Vağzalının rəis müavini, 2005-2015-ci illərdə Dəniz Vağzalının rəisi olub.

Fikrət müəllim hələ uşaqlıq illərindən Xəzərin mavi sularının vurğunu idi. Sahildə dayanıb ləpələri seyr etməkdən, dənizdə üzən gəmilərə baxmaqdan xüsusi zövq alırdı. Elə dənizə, sahili döyəcləyən ləpələrə olan maraq və istək onun ömrünün 38 ilini Bakı dəniz vağzalı ilə bağladı.

F.Teymurovun Bakının keçmişi ilə bağlı acılı-şirinli xatirələri var. 1988-ci ilin meydan hadisələri, 1990-cı ilin 20 Yanvar qırğını Fikrət Teymurovun yaddaşında silinməz iz qoyub. Çalışdığı Dəniz Vağzalı Azadlıq meydanının yaxınlığında yerləşirdi. Azadlıq, müstəqillik duyğuları ilə döyünən qəlbi həmişə xalqın yanında olub.

Onun təvazökarlığı, elədiyinin mində birini dilinə gətirməməsi, doğrudan da, gözəl insanlıq xüsusiyyətlərinə malik olmasından irəli gəlir. Deyir ki, xalqım, Vətənim üçün indiyədək etdiklərim həmişə məndə qürur hissi doğurub. Fəxr edirəm ki, müstəqil Azərbaycanın qurucuları sırasında mənim də azacıq da olsa, əməyim var.

Ulu öndər Heydər Əliyevin ikinci dəfə ali hakimiyyətə qayıdışını Fikrət müəllim Azərbaycan xalqının tarixi seçimi kimi qiymətləndirir. 1993-cü ildə Azərbaycanda vətəndaş qarşıdurması, xaos hökm sürdüyü bir vaxtda ümummilli lider xalqın təkidli tələbi ilə ölkə rəhbərliyinə gəldi və həyata keçirdiyi iqtisadi, siyasi islahatlar nəticəsində inkişaf və tərəqqinin əsasını qoydu. Heydər Əliyevin təməlini qoyduğu müstəqil Azərbaycan artıq 29-cu ildir günü-gündən güclənir, inkişaf edir.

Bu yolu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizin iqtisadi cəhətdən daha qüdrətli dövlətə çevrilməsi üçün böyük islahatlara təkan verib. Son dövrlər əməkhaqlarının, pensiya və müavinətlərin artırılması ilə bağlı verilən sərəncamlar, xalqın rifahının yaxşılaşdırılması istiqamətində atılan addımlar dövlət başçısının əhalinin sosial vəziyyətini daim diqqət mərkəzində saxlamasının bariz nümunəsidir.

Fikrət Teymurovun əməyi həmişə dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə 2011-ci ildə Azərbaycanda dəniz nəqliyyatının inkişafında xidmətlərinə görə “Tərəqqi” medalı ilə təltif olunub, 2017-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüb. O, 2014-cü ildən “Dəniz Donanmasının Fəxri işçisi”dir, 2018-ci ildə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları təşkilatının “30 il” yubiley medalı, Fəxri fərmanları ilə təltif olunub.

F.Teymurov hər gün Bakı Dənizkənarı Milli Parka gəzməyə çıxanda qeyri-ixtiyari olaraq ayaqları onu Dəniz Vağzalına gətirir. Bir vaxtlar birlikdə çalışdığı insanlar onu görən kimi xoş üzlə, mehribanlıqla qarşılayırlar. İndi də doğma kollektivində hər kəs işi çətinə düşəndə tez Fikrət müəllimi arayıb ondan məsləhət alır. O da həvəslə bilik və bacarığını gənclərlə bölüşür, onları doğru yola istiqamətləndirir.

Ömrünün kamillik dövrünü yaşayan təcrübəli mütəxəssis Fikrət Teymurovun 75 yaşı tamam oldu. Biz də öz dəst-xətti və qabaqcıl iş təcrübəsi ilə uzun müddət çalışdığı sahəyə töhfələr verən Fikrət müəllimi yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir, ona cansağlığı və həyatda müvəffəqiyyətlər arzu edirik.

***Bəybala BƏYBALAYEV***

# Niyyətin hara, mənzilin də ora...

***Niyyətin hara, mənzilin də ora...Məktəbi bitirməyə yaxınlaşdıqca hər birimiz gələcəkdə özümüzü harda görəcəyimizi müəyyənləşdiririk. Kimsə müəllimindən ilhamlanıb müəllim olmaq istəyir, kimsə gördüyü bir binanın memarlıq üslubuna heyran qalıb memarlığa həvəs göstərir və s.***



Dənizçi peşəsi onu seçəndən zəhmət və səbr tələb edir. Gəmidə işləyənlər və onların yaxınları bu işin nə qədər şərəfli və məsuliyyətli olduğunu çox gözəl bilirlər. Uzun müddət yaxınlarından uzaq düşən bu insanlar gördükləri işin nə qədər əhəmiyyətli olduğunu da yaxşı anlayırlar.

Yusir Şahmarov bu il ADDA-ya qəbul olan tələbələrdən biridir. O, digər tələbə yoldaşlarından fərqli olaraq seçim zamanı mümkün 15 ixtisasdan yalnız birini - Azərbaycan Dövlət Dəniz Akademiyasının “Dəniz naviqasiyası mühəndisliyi”ni seçib.

**- Yusir, hansı məktəbin məzunusan?**

- Əslən Astara rayonundanıq, amma Bakıda yaşayırıq. Nizami rayonundakı 229 saylı məktəbi bitirmişəm.

**- Dənizçi olmaq həvəsi səndə hardan yaranıb?**

- Qohumlarımız arasında dənizçi çoxdur. Onlar bizə gələndə tez-tez öz işləri haqqında danışırdılar. Aylarla dənizdə işləmək, bir ölkədən başqa ölkəyə gəmi ilə getmək, gəmi kapitanı olaraq bütün bunları idarə etmək mənə çox maraqlı gəlirdi.

**- Bəs, niyə yalnız bir ixtisas seçdin?**

- Orxan adlı bir qohumum var idi. Akademiyada mənim ixtisasım üzrə təhsil alırdı. Onunla görüşəndə həmişə mənə ADDA-dan və ixtisasından maraqlı söhbətlər edir, dərs prosesindən, təcrübələrindən danışırdı. Bu söhbətlər artıq məndə dənizçi olmaq həvəsini yaratmışdı. Orxan üçüncü kursda oxuyanda rayonumuzda faciəvi surətdə həlak oldu. Onun ölümü mənə çox pis təsir etmişdi. İçimdə hardasa bir az tərəddüd olsa da, onun ölümündən sonra dənizçi olacağıma və Orxanın bitirə bilmədiyi işi başa vuracağıma qəti qərar verdim. Bu il 538 bal topladım və seçim zamanı yalnız ADDA-nın “Dəniz naviqasiyası mühəndisliyi” ixtisasını seçdim.

**- Bu ixtisasdan gözləntilərin nədir?**

- Bayaq dediyim kimi su üzərində gəmilərin hərəkəti mənə çox maraqlıdır. Bildiyim qədər ASCO-nun xarici sularda Azərbaycan bayrağı ilə üzən gəmiləri var və getdikcə onların sayı artır. Ona görə də ingilis dilində təhsili seçmişəm. Arzum bu ixtisasa tam yiyələnmək və həmin gəmiləri hərəkətə gətirən heyətin bir üzvü olmaqdır.

***Musa ƏLİYEV,***
***ADDA-nın ictimaiyyətlə əlaqələr üzrə mütəxəssisi***

# Bakı dünyanın ən təhlükəsiz şəhəri sırasındadır

***“The Economist Intelligence Unit” analitik mərkəzi ilə “The Economist” jurnalının birgə hazırladığı hesabatda Bakı şəhəri “Təhlükəsiz şəhərlər indeksi 2019” (Safe Cities Index) reytinqinə görə dünyanın 60 ən təhlükəsiz şəhəri sırasındadır. Hesabatda Bakı şəhəri 56,4 balla qiymətləndirilərək 49-cu yerdə qərarlaşıb. Reytinqdə göstərilən şəhərlər rəqəmsal təhlükəsizlik, infrastruktur təhlükəsizliyi, səhiyyə və şəxsi təhlükəsizlik olmaqla dörd göstərici üzrə 57 indikatora əsasən dəyərləndirilib. AZƏRTAC bununla bağlı İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) media mütəxəssisi Nərmin Rəhimlinin şərhini təqdim edir.***

Dünyada urbanizasiyanın səviyyəsi get-gedə yüksəlməkdədir. Araşdırmalara görə, hazırda 56 faiz təşkil edən urbanizasiyanın 2050-ci ilədək 68 faizə çatacağı gözlənilir. Şəhərləşmənin bu cür sürətli artımı özü ilə birgə iqtisadi və sosial risklər doğurur. Belə artımın qarşısının alınması və statistik göstəricilərin planlaşdırılmış səviyyədə dəyişməsi ölkələrin prioritet məsələlərindəndir. Respublikamızda aparılan islahatlar, müəyyən edilmiş yol xəritələrində də bu proseslərin nəzarət altında saxlanıldığını müşahidə edə bilərik. Azərbaycanda urbanizasiyanın səviyyəsi 53 faiz təşkil edir. Bu ilin yanvarına olan statistik məlumata əsasən, Bakı şəhərinin əhalisinin sayı 2 milyon 277 min nəfər təşkil edir.

BMT-nin hesablamalarına görə, dünyada əhalisi 150 min nəfərdən çox olan 4416 şəhər var. Bunlardan yalnız 60-ı “Təhlükəsiz şəhərlər indeksi 2019”da qiymətləndirilib. Postsovet məkanından yalnız iki şəhər - Bakı və Moskva bu siyahıda qiymətləndirilmək səviyyəsinə yüksəlib. Bu da Bakının bir şəhər kimi dünyanın mühüm siyasi, iqtisadi, mədəni, tarixi və idman mərkəzlərindən biri olduğunu göstərir.

## Rəqəmsal təhlükəsizlik

“Təhlükəsiz şəhərlər indeksi 2019” hesabatında rəqəmsal təhlükəsizlik üzrə qiymətləndirmədə Bakı 51,7 balla 46-cı yerdə qərarlaşıb. Son illər Bakıda keçirilən kibertəhlükəsizlik və internetdən təhlükəsiz istifadə təlimləri, Azərbaycanın dünyada ilk dəfə mobil rezidentlik və ikinci dəfə elektron rezidentlik təqdim edən ölkə olması, dövlət-özəl dialoqu platforması olan “Azranking.az” portalının yaradılması, “ASAN İmza” və “Elektron imza” vasitəsilə həyata keçirilən prosedurlar, aparılan islahatlar nəticəsində müxtəlif sahələrdə elektron müraciət sistemlərinin tətbiqi, həmçinin dövlət və özəl sektorun bütün sahələrində texnologiyadan yüksək səviyyədə istifadə Bakının bu meyar üzrə qiymətləndirilməsinin göstəricisidir. Həmçinin Bakı şəhərində internetin əlçatanlığını, uyğun qiymətli və yüksəksürətli olmasını, şəhərin müxtəlif yerlərində pulsuz mövcudluğunu bu göstəricidə qeyd etmək olar.




## İnfrastruktur təhlükəsizliyi

Bakı “Təhlükəsiz şəhərlər indeksi 2019” reytinqində infrastruktur təhlükəsizliyi göstəricisi üzrə siyahıda 46,3 balla 54-cü yerdə qərarlaşıb. İqtisadiyyatın inkişafının səmərəliliyi, əhalinin həyat şəraitinin yaxşılaşması birbaşa infrastrukturun inkişaf səviyyəsindən asılıdır. Hazırda Bakıda yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı həm beynəlxalq qurumların maliyyə dəstəyi, həm də dövlət büdcəsi hesabına irimiqyaslı layihələr icra olunur. Yol, infrastruktur, elektrik enerjisi ilə təchizat, qazlaşdırma, su və kanalizasiya infrastrukturu layihələri – bütün bunlar Prezident İlham Əliyevin diqqət mərkəzindədir və son illər bu istiqamətdə çox ciddi addımlar atılır. Bakıda beynəlxalq standartlara cavab verən infrastruktur (nəqliyyat, şose yolları, maddi-texniki təchizat, telekommunikasiya, su təchizatı) mövcuddur. Böyük avtomobil yolları, həmçinin küçə və prospektlər, avtomobil magistrallarında körpülər, piyada keçidləri tikilib əhalinin istifadəsinə verilib. Azərbaycanda son 15 ildə 15 min kilometr yol və avtomagistrallar çəkilib. Bu yaxınlarda ölkə başçısının iştirakı ilə Bakıda Mərdəkan-Qala yolunun açılışı olub.

Yeri gəlmişkən, Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən, Azərbaycan yollarının keyfiyyətinə görə dünyada 34-cü yerdədir.

Şəhər və şəhərətrafı kəndlərin mövcud yollarının beynəlxalq standartlara cavab verəcək şəkildə əsaslı təmiri, nəqliyyatın sıxlıq təşkil etdiyi yerlərdə alternativ yolların istifadəyə verilməsi, şəhər sakinlərinin güzəştli şərtlərlə sosial yaşayış evləri ilə təmin olunmasının təşkili ölkəmizdə əhalinin yaşayış təhlükəsizliyinə göstərilən diqqətin bariz nümunələrindəndir. “Təhlükəsiz şəhərlər indeksi” reytinqində infrastruktur təhlükəsizliyi üzrə bu meyarlar diqqətə alınıb.

Bundan əlavə, Bakı şəhərində biri daxili, digəri beynəlxalq uçuşlar üçün olan iki böyük terminal mövcuddur. 2011-ci il martın 17-də Prezident İlham Əliyevin iştirakı ilə təməli qoyulan və 2014-cü il aprelin 23-də açılışı baş tutan, möhtəşəmliyi və texnologiya baxımından dünyada seçilən hava limanlarından olan Heydər Əliyev Beynəlxalq Aeroportu hər il milyonlarla turistin Bakıya gəlişini təmin edir, o cümlədən tranzit uçuşları həyata keçirir.

## Səhiyyə təhlükəsizliyi

Reytinqdə Bakı şəhəri səhiyyə təhlükəsizliyi üzrə göstəricidə 64 balla qiymətləndirilərək 41-ci yerdə qərarlaşıb. Son illər ölkəmizdə 600-dən çox tibbi müəssisə tikilib və ya əsaslı təmir olunub. Bu müəssisələrin böyük əksəriyyəti, texnika və mütəxəssis təminatı baxımından ən yüksək göstəricilərə malik olanları məhz əhalinin sıxlıq təşkil etdiyi Bakı şəhərində yerləşir.

Prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə tətbiq olunan və hər il 5 milyondan çox vətəndaşımızın istifadə etdiyi pulsuz müayinə xidmətlərini paytaxtımızın səhiyyə təhlükəsizliyinə dair siyahıda 64 balla qiymətləndirilməsinin səbəblərindən biri kimi qeyd etmək olar.

Azərbaycan Birləşmiş Millətlər Təşkilatının “İnsan inkişafı indeksi” (Human Development Index) reytinqində 189 ölkə arasında 80-ci yerdə qərarlaşıb. Hesabatda Azərbaycanın indeksi 0,757 baldır ki, bu da ölkəmizdə insan kapitalının və sağlamlığının yüksək səviyyəsinin göstəricisidir. BMT-nin “İnsan inkişafı indeksi” əhalinin həyat səviyyəsinin, savadlılıq və uzunömürlülük səviyyəsinin insan potensialını səciyyələndirən əsas göstəriciləri kimi hesablanır.

Bundan əlavə, əhalinin sağlamlığının qorunması məqsədilə tibbi xidmətlərin keyfiyyətinin və səmərəliliyinin artırılması istiqamətində həyata keçirilən böyük layihələrdən biri də Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 noyabr tarixli Fərmanına əsasən yaradılan “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi”dir. 2020-ci ilin yanvarından qüvvəyə minəcək İcbari Tibbi Sığortanın xidmətlər zərfinin baza hissəsi bütün ölkə vətəndaşları üçün Maliyyə Nazirliyi tərəfindən ödəniləcək.

Azərbaycan əhalisinin sağlamlığının daha da yaxşılaşdırılması məqsədilə mütəmadi olaraq yeni layihələr və strategiyalar işlənib hazırlanır. Bakı əhalisinin sağlamlığının statistikasına nəzər salsaq görərik ki, Avropanın əksər şəhərlərində kütləvi yayılan qızılca xəstəliyi şəhərimizdə dəfələrlə az müşahidə olunur. Bu tip yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə Səhiyyə Nazirliyi tərəfindən uşaqların peyvəndlənməsi istiqamətində işlər gücləndirilib.

Bakıda səhiyyə təhlükəsizliyinin inkişafını sübut edən məqamlardan biri də bu il fevralın 3-də Respublika Müalicəvi Diaqnostika Mərkəzində ağır ürək və ağciyər çatışmazlığı diaqnozu təyin edilmiş xəstəyə süni ürək implantasiyasının uğurla həyata keçirilməsi olub.

Dövlət başçısının səhiyyəyə göstərdiyi diqqət və qayğı ölkə əhalisinin demoqrafik və statistik göstəricilərinin daha da yaxşılaşmasına səbəb olub. Son 10 ildə Bakıda ölüm göstəriciləri azalıb, doğum və bununla bərabər təbii artım göstəricisi isə yüksəlib. Qeyd edək ki, Bakı şəhəri bu göstərici ilə Avropa şəhərləri arasında ön sıralarda gedir.

Reytinqin səhiyyə təhlükəsizliyi bölümündə qeyd olunan digər göstərici də şəhərlərdə havanın keyfiyyətidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamentinin mütəxəssisləri tərəfindən Bakı şəhərində keçirilmiş müşahidələrin nəticələri atmosfer havasının ekoloji keyfiyyətində yaxşılaşmaya doğru tendensiyanın olduğunu göstərir.

Həmçinin Bakı şəhərində əhalinin içdiyi suyun “İçməli su” standartına cavab verməsi məqsədilə Mərkəzi Laboratoriya fəaliyyət göstərir ki, bu da ölkəmizdə emal edilən suyun keyfiyyət göstəricilərinin Ümumdünya Səhiyyə Təşkilatı, Avropa İttifaqı standartlarının tələblərinə uyğunlaşmasına şərait yaradır.

## Şəxsi təhlükəsizlik

“Təhlükəsiz şəhərlər indeksi 2019” reytinqində Bakı şəxsi təhlükəsizlik indikatoru üzrə 63,7 balla qiymətləndirilərək 49-cu yerdə qərarlaşıb. Paytaxtımızda yerli əhalinin və ölkəyə gələn turistlərin şəxsi təhlükəsizliyi hüquq-mühafizə orqanları tərəfindən yüksək səviyyədə təmin olunur. Daxili İşlər Nazirliyi vətəndaşların odlu silah əldə etməsinə qanunla ciddi nəzarət edir. Bu səbəbdən də Bakıda odlu silahlarla törədilən cinayətlər Avropanın digər şəhərlərindən qat-qat azdır.

Ölkəmizdə gender bərabərliyinin tamamilə təmin olunduğu dövlət müəssisələrində və özəl müəssisələrdə, ölkə idarəetməsində fəaliyyət göstərən qadınların sayının kifayət qədər yüksək olması dünyanın bir çox ölkələrinə nümunə ola biləcək göstəricidir.

Son illər Bakıda keçirilən Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Formula 1 yarışları, UEFA Avropa Liqası, Avropa Gənclər Olimpiya Festivalı kimi beynəlxalq əhəmiyyətli idman yarışlarında təhlükəsizlik tam təmin olunub. Paytaxtımızda son illər heç bir terror aktının baş verməməsi, yerli sakinlərin, həmçinin xarici vətəndaşların şəxsi təhlükəsizliyinə mane ola biləcək hər hansı riskin olmaması daxili işlər orqanlarımızın fəaliyyətinin ürəkaçan nəticəsidir.

Bakı ilə yanaşı, reytinqə ilk dəfə olaraq Dubay, Kopenhagen, Laqos şəhərləri də daxil edilib. Reytinqdə birinci yeri Tokio tutub. Daha sonra ardıcıllıqla Sinqapur, Osaka, Amsterdam və Sidney şəhərləri qərarlaşıb.

Beləliklə, Bakı və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair qəbul edilmiş dövlət proqramının icrası nəticəsində şəhərimiz ildən-ilə inkişaf edir, əhalinin sosial rifahı yüksəlir, milyonlarla turistin diqqətini cəlb edir, dünyanın ən məşhur nəşrlərində paytaxtımız haqqında məqalələr yazılır. Elə “Təhlükəsiz şəhərlər indeksi 2019” reytinqində Bakının bu il ilk dəfə mövqe tutması da ölkə başçısının həyata keçirdiyi uğurlu iqtisadi-sosial siyasətin nəticəsidir.

# Xəzər dənizi hövzəsində əməkdaşlığın mövcud vəziyyətindən məmnunluq ifadə olunub

***Sentyabrın 17-də Xarici İşlər Nazirliyində Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında Xəzər dənizi məsələləri üzrə ikitərəfli məsləhətləşmələr keçirilib.***

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, məsləhətləşmələrdə Azərbaycan tərəfini Xarici İşlər nazirinin müavini, Azərbaycan Respublikası Prezidentinin sərhəd və Xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsi Xələf Xələfov, Qazaxıstan tərəfini isə Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri, Qazaxıstan Respublikasının Xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsi Zülfiyyə Amanjolova təmsil edib.



Məsləhətləşmələr zamanı Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası Katibliyinin təsis olunması məsələsi müzakirə olunub və Katibliyin tezliklə fəaliyyətə başlaması məqsədilə Konvensiyanın tərəfləri arasında razılaşdırma prosedurunun sürətləndirilməsinin vacibliyi vurğulanıb.

Görüşdə Xəzəryanı ölkələrin dövlət başçıları tərəfindən imzalanmış Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın implementasiyası üzrə, eləcə də Xəzəryanı dövlətlər arasında hazırda razılaşdırma mərhələsində olan sahəvi əməkdaşlıq məsələləri ilə bağlı saziş layihələri barədə fikir mübadiləsi aparılıb.

Həmçinin tərəflər arasında Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupun növbəti iclasının gündəliyində duran məsələlər, o cümlədən Xəzər dənizində düz çıxış xətlərinin müəyyən olunması metodikası haqqında Saziş layihəsi ilə bağlı müzakirələr baş tutub.

Bundan başqa, iki ölkə arasında Xəzər dənizi hövzəsində əməkdaşlığın mövcud vəziyyətindən məmnunluq ifadə olunub və bu xüsusda hazırda dənizin dibi ilə fiber-optik kabel xəttinin çəkilməsi prosesi və gələcəkdə mümkün ola biləcək digər layihələr barədə söhbət aparılıb.

Görüş zamanı tərəflər arasında qarşılıqlı maraq kəsb edən digər mövzular da müzakirə olunub.

# Xəzər dənizi məsələləri üzrə ikitərəfli məsləhətləşmələr aparılıb

***Sentyabrın 17-də Xarici İşlər Nazirliyində Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında Xəzər dənizi məsələləri üzrə ikitərəfli məsləhətləşmələr keçirilib. Bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.***

Məsləhətləşmələrdə Azərbaycan tərəfini Xarici İşlər nazirinin müavini, Azərbaycan Respublikası Prezidentinin sərhəd və Xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsi Xələf Xələfov, İran tərəfini isə Xarici İşlər Nazirliyinin Baş idarə rəisi, İran İslam Respublikasının Xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsi Rza Nəzər Ahari təmsil edib.

Görüş zamanı tərəflər, ilk növbədə, Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyasının Katibliyinin təsis olunması ilə əlaqədar məsələni müzakirə edərək, Konvensiyanın səmərəli tətbiqi baxımından onun Katibliyinin fəaliyyətə başlamasının zəruriliyini vurğulayıb və Konvensiya tərəflərinin qarşılıqlı anlaşma əsasında bu istiqamətdə tezliklə razılığa gəlməsinin vacibliyini qeyd ediblər.

Məsləhətləşmələr çərçivəsində, həmçinin Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupunun növbəti iclasının tarixi, eləcə də onun gündəliyinə daxil olan məsələlər üzrə fikir mübadiləsi aparılıb.

Görüşdə qarşılıqlı maraq kəsb edən digər mövzular da müzakirə olunub.

# “Hərbiyyə - Xəzər” hərbi vətənpərvərlik düşərgəsi ilk dəfə olaraq gəmilərdə və hərbi simulyasiya formatında həyata keçirilib

***Sentyabrın 18-də açılış mərasimi keçirilən “Hərbiyyə - Xəzər” hərbi vətənpərvərlik düşərgəsi “ASAN xidmət”, Dövlət Sərhəd Xidməti (DSX) və “ASAN Könüllüləri” Təşkilatının birgə təşəbbüsü ilə reallaşdırılıb.***









Tədbir iştirakçıları əvvəlcə DSX Sahil Mühafizəsinin bazasında Heydər Əliyev İdeoloji Mərkəzinin fəaliyyəti ilə tanış olub, Ulu Öndərin abidəsi önünə əklil qoyublar.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev düşərgə iştirakçılarını salamlayaraq cari il ərzində könüllülərin çoxsaylı müraciətlərinin nəzərə alınaraq “Hərbiyyə” düşərgəsinin növbəti dəfə təşkil olunduğunu diqqətə çatdırıb. O, Dövlət Sərhəd Mühafizəsinin 100 illiyi münasibətilə həyata keçirilən müxtəlif tədbirlərdən biri kimi bu tədbirin, o cümlədən “ASAN Könüllüləri”-nin hərbi vətənpərvərlik layihələrinin əhəmiyyətini vurğulayıb.

DSX rəisinin müavini, general-leytenant Azad Ələkbərov sərhədlərimizin etibarlı mühafizəsi, həmçinin gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin möhkəmləndirilməsi istiqamətində görülən işlərdən danışıb.

İki gün davam edən düşərgə ilk dəfə olaraq gəmilərdə və hərbi simulyasiya formatında həyata keçirilib. Layihə çərçivəsində iştirakçılar DSX Sahil Mühafizəsində təlimatlandırılaraq “Tufan” tipli gəmilərdə yerləşdiriliblər.

“Hərbiyyə - Xəzər” düşərgəsinin birinci günündə şəxsi heyətin ilkin mərhələdə artilleriya atışlarına hazırlığı, rabitə vasitələrindən kodlaşdırılmış şəkildə məlumatların ötürülməsi, daxil olmuş məlumatın kodlaşdırılması, açılması, vaxtında ötürülməsi izah olunub.

İştirakçılar simulyator vasitəsilə artilleriya atışının, 23-millimetrlik “TAYFUN” silahından atışın icra edilməsində də iştirak ediblər.

Həmçinin dəniz düyünlərinin vurulması formaları, qaydaları, növləri, gəmilərdə qəza anında yanğınla mübarizə zamanı geyim qaydaları barədə məlumat verilib.

Sonda qayıqlarda estafet yarışları keçirilib.

Düşərgənin ikinci günündə iştirakçılar silahın sökülüb-yığılması təliminə cəlb olunublar, müvafiq normativlər götürülüb.

Sonra kəndirin dartılması, burazın dairəyə, xilasedici dairənin təyin olunmuş nöqtəyə atılması, maneə zolağının keçilməsi müsabiqələri keçirilib.

Mərasimdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov iştirak edib.

Tədbirdə düşərgə müddətində komandalar arasında keçirilən yarışların nəticələrinə uyğun olaraq mükafatlandırma mərasimi keçirilib.

# Azərbaycan və Gürcüstan üzərindən keçən nəqliyyat dəhlizlərinin potensialının artırılması müzakirə olunub

***Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə ölkəmizdə səfərdə olan Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri xanım Natiya Turnava ilə görüşüb.***



Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən bildirilib ki, görüşdə iki ölkə arasında nəqliyyat sahəsində əməkdaşlığın genişləndirilməsi, Azərbaycan və Gürcüstan üzərindən keçən nəqliyyat dəhlizlərinin potensialının artırılması müzakirə olunub. Bakı-Tbilisi-Qars dəmir yolunun istismarının ölkələrimiz arasında yükdaşımalarının inkişafına təsiri barədə fikir mübadiləsi aparılıb. Həmçinin beynəlxalq yükdaşımalarında tətbiq olunan tariflər müzakirə edilib. Eyni zamanda, ölkələrimiz arasında aviasiya, avtomobil nəqliyyatı, su nəqliyyatı sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb.

# Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya ratifikasiya edilib

***Rusiyanın Dövlət Duması Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanı ratifikasiya edib.***



Prezident Vladimir Putin sənədi iyulun 30-da Dövlət Dumasının müzakirəsinə təqdim etmişdi.

Dövlət Dumasının sədri Vyaçeslav Volodin jurnalistlərə bildirib ki, Xəzər dənizi Rusiya, Azərbaycan, Qazaxıstan, İran və Türkmənistanı birləşdirən mühüm geosiyasi, ticari-iqtisadi və strateji əhəmiyyətli su hövzəsidir. O, sənədin imzalanmasını diplomatiyanın böyük nailiyyəti, Konvensiya iştirakçılarının dostluq münasibətlərinin təsdiqi kimi qiymətləndirib. V.Volodinin sözlərinə görə, Konvensiya dəniz ərazisindən dinc məqsədlərlə istifadə olunmasını, gəmiçilik rejimi və akvatoriyadan kollektiv istifadə olunması qaydalarını təsdiq edir, qarşılıqlı surətdə faydalı əməkdaşlıq imkanlarını genişləndirir.

# “ACSC Logistics” MMC 23-cü Qazaxıstan Beynəlxalq Nəqliyyat və Logistika sərgisində iştirak edib

***18-20 sentyabrda Qazaxıstanın Almatı şəhərindəki Atakent Sərgi Mərkəzində 23-cü Qazaxıstan Beynəlxalq Nəqliyyat və Logistika sərgisi keçirilib.***

Sərgidə ölkəmizi “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin (ASCO) tərkibinə daxil olan “ACSC Logistics” MMC təmsil edib.

Dünyanın 30 ölkəsindən 3000-dən çox ziyarətçinin qatıldığı sərginin başladığı ilk gündən “ACSC Logistics” MMC-nin stendi xüsusi marağa səbəb olub.

Maraqlanan şəxslər “ACSC Logistics” MMC-nin göstərdiyi xidmətlər barədə ətraflı məlumatlandırılıb. Həmçinin, Azərbaycan üzərindən keçən nəqliyyat dəhlizlərinin, xüsusilə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əhəmiyyəti diqqətə çatdırılıb. Ziyarətçilərə “ACSC Logistics” MMC-nin fəaliyyətini əks etdirən xüsusi çap məhsulları paylanılıb.

Bununla belə, “ACSC Logistics” MMC-nin nümayəndələri alternativ dəhlizlərlə daşınan yüklərin Azərbaycan üzərindən keçən dəhlizlərə cəlbi üçün sərgidə iştirak edən yük sahibləri ilə müzakirələr də aparıblar.













Xatırladaq ki, “ACSC Logistics” MMC həm ölkə daxilində, həm də xaricdə nəqliyyat və logistika xidmətləri göstərir. Şirkətin əsas məqsədi Avropa ilə Asiya arasındakı ən qısa marşrut kimi qədim İpək Yolu, xüsusilə Transxəzər Nəqliyyat Dəhlizinin tam istifadəsini təşviq etmək, bu istiqamətdə əlavə yükdaşıma imkanlarını araşdırmaq və həyata keçirməkdən ibarətdir. “ACSC Logistics” MMC şəffaf və aydın tarif siyasəti, innovativ iş üsullarından istifadə, əlavə xərcləri aradan qaldırmaq üçün qabaqlayıcı tədbirlərin görülməsi, yaranmış problemlərin həllində sürətlilik, müqavilələrə uyğun vəzifələrin peşəkar və vaxtında yerinə yetirilməsi kimi vacib prinsiplərlə işləyir “ACSC Logistics” MMC-nin xidmət dairəsi genişdir. Şirkət müştərilərinə yüklərin daşınması üçün ən optimal marşrut seçimi, təhlükəli və iri həcmli yüklər və onların daşınma şərtləri barədə tövsiyələr verir, yüklərin Xəzər dənizi, Qara dəniz, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Türkmənistan, Özbəkistan, MDB və Baltik ölkələrinin həm dəmir, həm də dəniz yolları ilə daşınmasını həyata keçirir. Bundan başqa, daşıma zamanı tələb olunan sənədləşmə və müşayiət xidmətlərinin, o cümlədən gömrük rəsmiləşdirilməsi, sığorta, gəmi agenti, nəqliyyat, ekspedisiya və digər xidmətlərin göstərilməsini də təşkil və təmin edir.

# İspaniya Aralıq dənizində xilas edilmiş miqrantların bölüşdürülməsindən imtina edir

***İspaniya Aralıq dənizində hərbçilər və ya humanitar missiyalı gəmilər tərəfindən xilas edilmiş miqrantları bölüşdürməyəcək.***




İspaniya KİV-lərinin verdiyi xəbərə görə, Avropa səviyyəsində yeni saziş bu məsələyə həsr olunacaq.

Hökumətdə vurğulayıblar ki, bu, heç də o demək deyil ki, ölkə dənizdə miqrantlara yardım göstərməyə hazırlaşmır, yaxud qanunamüvafiq surətdə miqrantlara diqqət göstərməyi planlaşdırmır. Qeyd edilir ki, İspaniya bu işlə başqa ölkələrdən daha çox məşğul olur.

Avqustda Krallıq dənizə İspaniya bayrağı altında çıxmış 15 “Open Arms” sərnişin gəmisini qəbul edib.

Hazırda Aralıq dənizi akvatoriyasında yeddi gəmi üzür. Onların vəzifəsi fəlakətə düçar olan qeyri-leqalları xilas etməkdir. Gəmilərin dördü Almaniya bayrağı altında üzür.

***Nigar Cəfərli***

# Transavrasiya marşrutlarına əlavə yük həcmini cəlb etmək üçün Avropa-Asiya bağlantısında yük daşınması iştirakçılarının fəaliyyəti əlaqələndirilməlidir

***Qazaxıstanın paytaxtı Nur-Sultanda “Transsibir Daşımaları üzrə Əlaqələndirmə Şurası” Beynəlxalq Assosiasiyasının (TDƏŞ) XXVIII plenar iclası keçirilib. Tədbirdə “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.***

İclasda TDƏŞ sədri, “Rusiya Dəmir Yolları” ASC-nin baş direktoru Oleq Belozyorovun “Avrasiya nəqliyyat marşrutları: tranzit potensialının inkişafı” məruzəsi dinlənilib.

Sonra tədbir iştirakçıları tərəfindən TDƏŞ-in 27-ci plenar iclasının qərarlarının icrası, şuranın sədr müavinlərinin hesabatları, Avropa-Asiya bağlantısında dəmir yolu dəhlizlərinin inkişafı, Asiya-Avropa bağlantısında konteyner qatarlarının tərkibində yük daşınmasının təşkili və həyata keçirilməsinin praktikası və problemləri, xətt xidməti və intermodal daşımaların inkişafı, nəqliyyat və logistika sahəsində rəqəmsallaşdırma, intellektual sistem və texnologiyaların tətbiqi, TDƏŞ-in “Elektron qatar” və “İnteqrasiya rəqəmsal platforması” layihələri müzakirə olunub.

Həmçinin tədbirdə Avropa-Asiya bağlantısında multimodal daşımaların fasiləsiz təşkilini təmin etmək üçün dəniz limanlarının infrastrukturunun və nəqliyyat imkanlarının inkişafı, Avropa-Asiya bağlantısında daşınan yüklərin təhlükəsizliyinin təmin edilməsi, TDƏŞ-in “Təhlükəsizlik qatarı” layihəsi, elektron yük monitorinqi sistemləri, yüklərin sığortalanması, şuranın hökumət, beynəlxalq və qeyri-hökumət qeyri-kommersiya təşkilatlar ilə əməkdaşlığı, Transavrasiya dəmir yolu və multimodal daşımalarının inkişafının iqtisadi aspektləri, mövcud vəziyyəti və perspektivləri müzakirə obyekti olub.

Plenar iclasda, eyni zamanda, təşkilati məsələlərə toxunulub, “Transsibir Daşımaları üzrə Əlaqələndirmə Şurası” Beynəlxalq Assosiasiyasına yeni üzvlərin qəbulu məsələsinə baxılıb və “Azərbaycan Dəmir Yolları” QSC TDƏŞ-in üzvü seçilib.

Qeyd edək deyək ki, “Transsibir Daşımaları üzrə Əlaqələndirmə Şurası”nın yaradılması haqqında Bəyannamə 1993-cü ildə Moskvada imzalanıb. Hazırda Şurada 100-ə yaxın şirkət, o cümlədən 24 ölkənin - Almaniya, Avstriya, Belarus, Bolqarıstan, Estoniya, Finlandiya, Fransa, Çin, Çexiya, İsveçrə, İsveç, Koreya Respublikası, Latviya, Litva, Macarıstan, Monqolustan, Norveç, Polşa, Qazaxıstan, Rusiya, Slovakiya, Ukrayna və Yaponiyanın dəmir yolları, dəniz limanları, nəqliyyat və logistika, sığorta, konsaltinq, informasiya texnologiyaları şirkətləri, mühafizə və istehsal müəssisələri, milli operator və ekspeditor assosiasiyaları təmsil olunmaqdadır. Şuranın əsas vəzifəsi Transavrasiya marşrutlarına əlavə yük həcmini cəlb etmək məqsədilə Avropa-Asiya bağlantısında yük daşınması iştirakçılarının fəaliyyətini əlaqələndirməkdir.

# Ermənistanla bağlanmış sazişə xitam veriləcəkmi?

***“Rusiya Dəmir Yolları” Dövlət Şirkəti (RJD) Ermənistanla bağlanmış sazişə xitam vermək niyyətindədir.***

Ermənistan “RJD”nin “Cənubi Qafqaz Dəmir Yolları” (CQDY) törəmə şirkətinin işini əngəllədiyi üçün şirkət Ermənistanla bağlanmış sazişə xitam verməyi planlaşdırır. Bu barədə Rusiyanın “RTVI” kanalına Rusiya nəqliyyat nazirinin müavini Vladimir Tokaryev məlumat verib.

Kanal bildirir ki, Ermənistan hakimiyyəti CQDY-də axtarışlar apardıqdan və törəmə şirkətə qarşı cinayət işi açdıqdan sonra RJD ilə Yerevan arasında münasibətlər pisləşib. 2018-ci ildə şirkəti 19 min dollar məbləğində vergidən yayınmaqda təqsirləndirən rəsmi Yerevan onun ofisində axtarışlar aparıb. Ermənistan nəqliyyat nazirinin keçmiş müavininə qarşı cinayət işi açılanda isə onun CQDY-də yoxlamalar zamanı aşkarlanan qanun pozuntularını guya gizlətdiyi üzə çıxıb. Ümumilikdə Ermənistanda CQDY-yə qarşı 7 cinayət işi açılıb.

CQDY şirkətindən “RTVI” kanalına bildiriblər ki, əgər Ermənistan Rusiyaya təzyiq göstərmədən işi araşdırmaq niyyətində olsaydı, beynəlxalq məhkəməyə müraciət edərdi. Belə ki, tərəflər arasında bağlanmış müqavilədə mübahisəli məsələləri həll etmək üçün Paris arbitrajına müraciət olunması nəzərdə tutulub. Bunun əvəzində, Ermənistan Rusiya şirkətinə qarşı silsilə cinayət işləri açmağa üstünlük verir.

Rusiya münaqişəni danışıqlar yolu ilə həll etməyə çalışaraq, aidiyyəti nazirliklər və Ermənistan baş nazirinin müavini Mger Qriqoryanla müzakirələr aparıb. Lakin bu, heç bir nəticə verməyib.

İndi Moskva Ermənistanla bağlanmış müqavilədən çıxmağı düşünür. V.Tokaryevin sözlərinə görə, Ermənistan işi o yerə gətirib çıxarıb ki, CQDY artıq Yerevanda işləyə bilmir. Şirkətin 10 il ərzində fəaliyyətinə dair bütün sənədlər müsadirə olunub, sübutsuz ittihamlar irəli sürülür. Nazir müavini təsdiq edib ki, Rusiya tərəfi Ermənistanla müqaviləyə vaxtından əvvəl xitam vermək məsələsi üzərində ciddi işləyir.

***Fəridə Abdullayeva***

## Qeyri-neft daşımaları üzrə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə yükdaşımaların həcmi 23 faiz artıb



***Cari ilin 7 ayında qeyri-neft daşımaları üzrə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə yükdaşımaların həcmi 23 faiz artıb.***

Bu barədə İqtisadiyyat naziri Şahin Mustafayev sentyabrın 17-də jurnalistlərə açıqlamasında deyib.

Azərbaycan və Gürcüstanın nəqliyyat sahəsində böyük potensialı olduğunu deyən nazir diqqətə çatdırıb ki, ötən il yükdaşımaların həcmi 72 faiz artıb: "Bu çox yaxşı göstəricidir. Biz gürcüstanlı həmkarlarımızla danışıqlarda bu dəhlizin təşviqi istiqamətində tədbirlərin təşkilini nəzərdə tuturuq".

## Təcrübəli dənizçiyə "Gəmiçilik sahəsində xidmətlərə görə" medalı təqdim olunub

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illik yubileyi ərəfəsində "Gəmiçilik sahəsində xidmətlərə görə" medalına layiq görülən təcrübəli dənizçi Namiq Hüseynqulu oğlu Cəfərova medal və vəsiqə təqdim olunub.***

Namiq Cəfərova yüksək mükafatı ASCO-nun Dəniz Nəqliyyatı Donanmasının rəisi Çingiz Səfərov təqdim edib. Donanmanın rəisi uzaq səfərlər kapitanını təbrik edərək, ona cansağlığı, fəaliyyətində uğurlar arzulayıb.



Qeyd edək ki, 1963-cü ildə matros kimi əmək fəaliyyətinə başlayan Namiq Cəfərov 2014-cü ilədək Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində çalışıb. O, müxtəlif illərdə kapitanın üçüncü, ikinci, baş köməkçisi, kapitan, Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Xidmətində təlimatçı-kapitan, Radiolokasiya təlim-məşq kompleksinin təlimatçı-kapitanı vəzifələrində işləyib.

Hazırda fəaliyyətini Dövlət Dəniz Agentliyinin Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzində liman müfəttişi kimi davam etdirir.

## Veteran kapitan yüksək mükafata görə minnətdarlığını bildirib

***Uzun müddət kapitanın baş köməkçisi və kapitan vəzifəsində işləmiş, hazırda təqaüddə olan Boris Fyodoroviç Kasimova "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)" Azərbaycan Respublikasının yubiley medalı təqdim olunub.***

Qocaman dənizçiyə yubiley medalını ASCO-nun Dəniz Nəqliyyatı Donanmasının rəisi Çingiz Səfərov təqdim edib. Donanmanın rəisi Boris Kasimovu təbrik edərək ona cansağlığı arzulayıb.



Boris Kasimov öz növbəsində verilən yüksək qiymətə görə minnətdarlığını bildirib.

Boris Kasimov 1933-cü ilin iyulunda doğulub. Ömrünün 62 ilini dənizçilik sahəsinə həsr edib. O, əmək fəaliyyətinə matrosluqdan başlayıb, kapitan vəzifəsinədək yüksəlib. Nəqliyyat Donanmasına aid müxtəlif gəmilərdə çalışan veteran Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin mahir gəmi sürücülərindən biri olub.

## Sınaq məqsədilə Türkiyədən Türkmənistana qarışıq yüklər daşınıb

***"Azərbaycan Dəmir Yolları" QSC-nin törəmə şirkəti olan "ADY Express" MMC Bakı-Tbilisi-Qars dəmir yolu ilə daha bir neçə yeni növ yükü daşımağa başlayıb.***




MMC-dən bildirilib ki, buna Bakı-Tbilisi-Qars dəmir yolunun yaratdığı yeni cəlbedici imkanların hesabına nail olunub. Belə ki, aparılan danışıqlar nəticəsində, bu dəfə sınaq məqsədilə Türkiyədən Türkmənistana qarışıq yüklər daşınıb. On iki yük avtomobili ilə Türkiyənin Qars stansiyasına çatdırılan yüklər, burada "ADY Express"ə məxsus və təqdim etdiyi 4 ədəd yarımvaqona aşırılaraq, yola salınıb. Gürcüstanın Axalkalaki stansiyasında təkər cütləri dəyişdirildikdən sonra, vaqonlar Ələtdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanına çatdırılıb, buradan isə Türkmənbaşı limanına bərə vasitəsi ilə nəql edilib. 220 tonadək yük Türkiyədən Türkmənistana qısa müddət ərzində - 5 günə çatdırılıb. Bu isə ənənəvi avtomobil yolu ilə daşımadan fərqli olaraq, tranzit vaxtının azı 2 dəfə azalması deməkdir. Bunu avtomobil yollarında və sərhədlərdəki sıxlıq ilə yanaşı, dəmir yolunun sürət və çevikliyi ilə əlaqələndirmək olar. İmzalanmış müqaviləyə əsasən, "ADY Express" 50 min ton bu növ yüklərin Bakı-Tbilisi-Qars dəmir yolu ilə nəqlini həyata keçirəcək.

## Gəmilərin boğazları sərbəst və təhlükəsiz keçməsinə zəmanət veriləcək

***Səudiyyə Ərəbistanı Körfəzdə gəmiçiliyin təhlükəsizliyinin təmini üzrə beynəlxalq koalisiyaya qoşulmaq barədə qərar qəbul edib.***

Bu barədə SPA dövlət agentliyi Səudiyyə Ərəbistanın Müdafiə Nazirliyinin adı açıqlanmayan məsul mənbəyə istinadla məlumat yayıb.

Qeyd olunur ki, bu beynəlxalq alyansın iştirakçıları Hörmuz, Bab-el Mandeb və Oman boğazları, eləcə də Körfəzdə gəmilərin sərbəst və təhlükəsiz keçməsinə zəmanət verməyi öz öhdəsinə götürür. Bildirilir ki, Krallığın bu beynəlxalq alyansa daxil olması dəniz nəqliyyatı ilə bağlı təhdidlərin qarşısının alınması, beynəlxalq ticarətin qorunması və beynəlxalq enerji şəbəkəsinin təhlükəsizliyini təmin etmək, habelə dünyada sabitliyin qorunması üçün regional və beynəlxalq səylərin dəstəklənməsi ilə əlaqədardır.



## Beynəlxalq marşrutların fəaliyyətinin gücləndirilməsi iştirakçı ölkələrin tranzit potensialının artırılmasına istiqamətlənib

***"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətində(QSC) Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri xanım Natiya Turnavanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.***



QSC-nin mətbuat xidmətindən bildirilib ki, görüşdə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov Azərbaycan və Gürcüstan dəmir yolları arasında mövcud olan əməkdaşlıq əlaqələri, Azərbaycanın nəqliyyat-logistika imkanları, dəmir yolunda həyata keçirilən islahatlar barədə danışıb. O, Bakı-Tbilisi-Qars dəmir yolu bağlantısı, "Şimal-Cənub" və Cənub-Qərb nəqliyyat dəhlizləri, Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu barədə ətraflı məlumat verib. Bildirib ki, beynəlxalq marşrutların fəaliyyətinin gücləndirilməsi iştirakçı ölkələrin tranzit potensialının artırılmasına istiqamətlənib.

Bakı-Tbilisi-Qars dəmir yolunun danışan C. Qurbanov qeyd edib ki, bu marşrut istifadəyə veriləndən sonra region ölkələrini Avrasiya məkanında mühüm nəqliyyat və logistika mərkəzinə çevirməkdədir.

Sonra əməkdaşlıq əlaqələrinin perspektivləri ilə bağlı müzakirələr aparılıb.

Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri xanım Natiya Turnava bildirib ki, 2017-ci ilin oktyabr ayında Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi tarixi bir hadisə idi. Bakı-Tbilisi-Qars dəmir yolunun imkanlarından istifadə edilməklə, indi bu marşrutla, Azərbaycan və Gürcüstan üzərindən keçməklə, Çin, Orta Asiya ölkələrindən yüklər Türkiyəyə və əks istiqamətdə daşınır.

Görüşdə ikitərəfli əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi qərara alınıb.

## Həştərxan vilayəti bütün Xəzəryanı dövlətlərlə ciddi iqtisadi əlaqələr qurmaq niyyətindədir



***"Biz bütün Xəzəryanı dövlətlərlə ciddi iqtisadi əlaqələr qurmaq – nəqliyyat infrastrukturunu, kruiz səyahətini, gəmiqayırma sahəsini inkişaf etdirmək niyyətindəyik."***

"RİA Novosti" agentliyi xəbər verir ki, bu sözləri Rusiya Federasiyasının Həştərxan vilayətinin yeni qubernatoru İqor Babuşkin söyləyib.

Həştərxan vilayətinin Xəzəryanı zonada yerləşdiyi ərazinin üstünlükləri və perspektivləri barədə söhbət açan qubernator 2021-ci ildə regionda İkinci Xəzər İqtisadi Forumunun keçirilməsi haqqında qərara münasibət bildirərək deyib: "Belə yüksək səviyyəli tədbir Həştərxan vilayəti üçün böyük şərəf, iqtisadi artıma və infrastrukturun inkişafına güclü təkan olacaq. Bu, Həştərxanın gözəlliklərini bütün Xəzəryanı dövlətlərə nümayiş etdirmək üçün bir fürsətdir. Bizdə qeyri-adi gözəlliyə malik olan mədəni irs obyektləri çoxdur, lakin bu obyektlərin bir qismi heç də yaxşı vəziyyətdə deyil. Əlbəttə, foruma qədər biz şəhərin görkəmini, binaların fasadlarını dəyişməliyik".

Qeyd edək ki, İkinci Xəzər İqtisadi Forumuna hazırlıq çərçivəsində Rusiya, Azərbaycan, Qazaxıstan, Türkmənistan və İranın iqtisadiyyat nazirlərinin beştərəfli görüşü keçiriləcək.

RF İqtisadi inkişaf nazirinin müavini Mixail Babiç deyib: "Həştərxan vilayəti Xəzər regionunda bizim işimizin paytaxtına çevrilir. Bu, Rusiyada ən mühüm iş formatıdır. Biz gələn il Həştərxanda Xəzər regionu ölkələrinin iqtisadiyyat nazirlərinin görüşlərinin keçirilməsini nəzərdə tuturuq".

Həmin görüşün İkinci Xəzər İqtisadi Forumunu ərəfəsində keçiriləcəyini bildirən Babiç daha sonra deyib: "İndi biz hökumətin sərəncamının layihəsini hazırlayırıq. Həştərxan bu tədbirin paytaxtı təyin edilib. Bu o deməkdir ki, Həştərxan həm kommunikasiyalar, həm də infrastruktur baxımından bu bazarda RF-nin qapıları funksiyasını yerinə yetirən regiondur".

RF baş naziri Dmitri Medvedev bu il avqustun 12-də növbəti Xəzər İqtisadi Forumumun Həştərxanda keçirilməsi təşəbbüsü ilə çıxış edib. Bu tədbir Xəzəryanı regionda əməkdaşlığın daha da möhkəmlənməsi, müvafiq razılaşmaların reallaşması prosesində mühüm addım olmalıdır.

Xatırladaq ki, Birinci Xəzər İqtisadi Forumu bu il avqustun 12-də Türkmənbaşı şəhərindəki (Türkmənistan) "Avaza" Milli Turizm zonasında keçirilib.

2014-cü ilin sentyabr ayında Xəzəryanı ölkələrin dövlət başçılarının Həştərxanda keçirilmiş IV zirvə görüşündə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Xəzərdə nəqliyyat və ticari-iqtisadi əməkdaşlıq sahəsində iki yeni saziş hazırlanmasını, habelə Xəzər İqtisadi Forumunun təsis olunmasını təklif edib.

***Ruslan Manafov***

## Yapon dənizində mənsubiyyəti məlum olmayan iki gəmi aşkar edilib

***Yaponiya hökuməti ötən ay ölkənin məxsusi iqtisadi zonasına daxil olan iki şübhəli gəmiyə görə Şimali Koreyaya etirazını bildirib.***

Yaponiya Nazirlər Kabinetinin Baş katibi Yoşihide Suqa bu barədə sentyabrın 13-də keçirilən ənənəvi mətbuat konfransında bildirib.

Y.Suqa deyib ki, Yaponiya Balıqçılıq Agentliyinin patrul gəmisi avqustun 23-də Yapon dənizində Yaponiyaya məxsusi iqtisadi zonada mənsubiyyəti məlum olmayan iki gəmi aşkar edib. Ertəsi gün həmin rayonda Şimali Koreyaya məxsus gəmi Yaponiyanın digər patrul gəmisinə yaxınlaşıb. Sahil Mühafizəsi Xidmətinin bildirdiyinə görə, həmin gəminin göyərtəsində olan şəxs təqribən 30 metr məsafədən tapança çıxararaq onu patrul gəmisinə yönəldib. Bu zaman gəmidəki digər şəxs həmin hadisəni videokamera vasitəsilə lentə alıb.



Baş katib qeyd edib ki, əlaqədar nazirlik hadisə barədə məlumat yayıb və Yaponiya hökumətinin qənaətinə görə həmin gəmilər Şimali Koreyaya məxsusdur. Yaponiya tərəfi baş verən hadisəyə görə Pekindəki diplomatik kanallar vasitəsilə Pxenyana etirazını bildirib.

Y.Suqa əlavə edib ki, əlaqədar nazirlik həmin rayonda yapon balıqçıların təhlükəsizliyini təmin etmək üçün lazım olan bütün tədbirləri görəcək.

***Vüqar Ağayev***

## Əhali artımı ilə müqayisədə miqrantların sayının daha sürətlə artması davam edir

***Dünyanın bütün regionlarında əhali artımı ilə müqayisədə miqrantların sayının daha sürətlə artması davam edir. Hazırda beynəlxalq miqrantların sayı 272 milyon nəfərə çatıb. Bu, dünya əhalisinin 3,5 faizi deməkdir.***

BMT-nin məruzəsinə görə, 2019-cu ildə beynəlxalq miqrantların sayı 272 milyon nəfərə çatıb, bu isə 2010-cu ilin müvafiq göstəricisi ilə müqayisədə 51 milyon nəfər çoxdur.

BMT-nin son hesablamalarına görə, hazırda beynəlxalq miqrantların sayı dünya əhalisinin sayının 3,5 faizinə bərabərdir. Müqayisə üçün bildirək ki, 2000-ci ildə bu nisbət 2,8 faiz idi.

2019-cu ildə beynəlxalq miqrantların çoxu (82 milyon) Avropanın payına düşür. Sonrakı yerləri Şimali Amerika (59 milyon), Şimali Afrika və Qərbi Asiya (49 faiz) tutur. Ölkələr səviyyəsində bütün beynəlxalq miqrantların təqribən yarısı cəmi 10 ölkədə yaşayır. Bu halda beynəlxalq miqrantların 19 faizini (51 milyon) Amerika Birləşmiş Ştatları qəbul edir.

Miqrantların sayına görə ikinci və üçüncü yerləri Almaniya və Səudiyyə Ərəbistanı tutur (hərəsində 13 milyon). Rusiya Federasiyasında 12 milyon, Böyük Britaniyada 10 milyon, Birləşmiş Ərəb Əmirliklərində 9 milyon, Fransa, Kanada və Avstraliyanın hərəsində təqribən 8 milyon, İtaliyada 6 milyon beynəlxalq miqrant var.

Bütün beynəlxalq miqrantların üçdə bir hissəsi on ölkədən olanlardır. Bu baxımdan aparıcı mənşə ölkəsi Hindistandır. 18 milyona yaxın hindistanlı miqrant xarici ölkələrdə yaşayır.

Meksikadan olan miqrantlar digər ölkələrdəki diasporun sayına görə (12 milyon) ikinci yeri tutur. Sonrakı yerləri Çin (11 milyon), Rusiya Federasiyası (10 milyon) və Suriya Ərəb Respublikası (8 milyon) tutur.

Əhalinin ümumi sayında beynəlxalq miqrantların faizi coğrafi regionlar üzrə xeyli fərqlənir. Bu baxımdan ən yüksək göstəricilər Okeaniyada (Avstraliya və Yeni Zelandiya da daxil olmaqla) 21,2 faiz və Şimali Amerikada 16,0 faiz, ən aşağı göstəricilər isə Latın Amerikasında və Karib hövzəsində (1,8 faiz), Mərkəzi və Cənubi Asiyada (1,0 faiz), həmçinin Şərqi və Cənub-Şərqi Asiyada (0,8 faiz) qeydə alınıb.

Beynəlxalq miqrantların əksəriyyəti eyni regionda yerləşən ölkələr arasında yerlərini dəyişir.



Böyük səhradan cənuba doğru Afrika ölkələrində beynəlxalq miqrantların əksəriyyəti (89 faiz), Şərqi və Cənub-Şərqi Asiya ölkələrində 83 faiz, Latın Amerikası və Karib hövzəsi ölkələrində 73 faiz, Mərkəzi və Cənubi Asiya ölkələrində 63 faiz əvvəlki yaşayış yerlərindən gələnlərdir.

Şimali Amerikada yaşayan beynəlxalq miqrantların əksəriyyəti (98 faiz), Okeaniyada 88 faiz, Şimali Afrika və Qərbi Asiyada 59 faiz hazırda yaşadıqları regionun hüdudlarından kənarda doğulanlardır.

Beynəlxalq sərhədləri keçən məcburi miqrantların sayı artmaqda davam edir. 2010-2017-ci illərdə sığınacaq axtaran şəxslərin və qaçqınların ümumi sayı təqribən 13 milyon nəfər artıb. Bu, bütün beynəlxalq miqrantların sayının artımının dörddə bir hissəsinə yaxındır. Şimali Afrika və Qərbi Asiya qaçqınların və sığınacaq axtaran şəxslərin təqribən 46 faizini qəbul edib. Sonrakı yerləri böyük səhradan cənubda yerləşən Afrika ölkələri tutur (21 faiz). 2019-cu ildə miqrant qadınların sayı bütün beynəlxalq miqrantların ümumi sayının yarısından bir qədər az olub. 2000-ci ildə 49 faizə bərabər olmuş bu göstərici 2019-cu ildə azalaraq 48 faizə çatıb. Şimali Afrikada 52 faiz, Avropada 52 faiz təşkil etmiş miqrant qadınların sayı böyük səhradan cənubdakı Afrika ölkələrində 47 faizə, Şimali Afrika və Qərbi Asiya ölkələrində 36 faiz olub.

Beynəlxalq miqrantların yeddidə bir hissəsinin yaşı 20-dən aşağıdır. 2019-cu ilin məlumatına görə, dünyada yaşı 20-dən aşağı olan beynəlxalq miqrantların sayı 38 milyon nəfər və ya miqrantların ümumi sayının 14 faizi qədər olub.

Bütün beynəlxalq miqrantlar arasında gənclərin sayının ən yüksək (27 faiz) olduğu region böyük səhradan cənubda yerləşən Afrika ölkələridir. Latın Amerikası və Karib hövzəsi, Şimali Afrika və Qərbi Asiya regionlarının hər birində bu göstəricinin qiyməti təqribən 22 faiz olub.

Beynəlxalq miqrantların dörddə üç hissəsi əmək qabiliyyətli yaşdadır (20-64 yaş). 2019-cu ildə bu yaşda olan beynəlxalq miqrantların sayı 202 milyon və ya dünyadakı miqrantların ümumi sayının 74 faizi qədər olub. Şərqi və Cənub Şərqi Asiyada, Avropa və Şimali Amerikada beynəlxalq miqrantların dörddə üç hissəsindən çoxu əmək qabiliyyətli yaşdadır.

## BƏƏ dəniz gəmiçiliyinin təhlükəsizliyinin təmin edilməsi üzrə beynəlxalq koalisiyaya qoşulacaq

وزارة الخارجية والتعاون الدولي
MINISTRY OF FOREIGN AFFAIRS
& INTERNATIONAL COOPERATION

***Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Körfəz rayonunda dəniz gəmiçiliyinin təhlükəsizliyinin təmin edilməsi üzrə beynəlxalq koalisiyaya qoşulmağı qərara alıb.***

WAM Dövlət İnformasiya Agentliyi bu barədə BƏƏ Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin təhlükəsizlik sahəsində əməkdaşlıq departamentinin direktoru Səlim əl-Zaaibinin bəyanatına istinadla məlumat yayıb.

Bəyanatda qeyd edilir ki, BƏƏ-nin bu alyansa qoşulmaqda məqsədi dəniz gəmiçiliyinə və dünyada ticarətə qarşı təhdidlərlə mübarizədə regional və beynəlxalq səyləri dəstəkləmək, enerji təhlükəsizliyini, enerji ehtiyatlarının dünya bazarlarına göndərilməsini təmin etmək, beynəlxalq sülhü və sabitliyi dəstəkləməkdir. Qeyd olunur ki, beynəlxalq koalisiyanın fəaliyyət dairəsi Hörmüz və Bab Əl-Məndab boğazlarını, Oman dənizini və Körfəzi əhatə edir.

Məlumat üçün qeyd edək ki, sentyabrın 18-də Səudiyyə Ərəbistanı Körfəz rayonunda beynəlxalq koalisiyaya qoşulduğunu elan edib.

***Asya Hacızadə***

# "Make the Earth Smile" sərgisi oktyabrın 5-dək davam edəcək






***"Nargis" Nəşriyyat Evi Dənizkənarı Milli Parkda ətraf mühitin qorunması probleminə həsr edilmiş "Make the Earth Smile" adlı sərgi təşkil edib. Layihə çərçivəsində səkkiz heykəltəraşın müxtəlif istehsalat tullantılarından qurulmuş 13 instalyasiya təqdim olunub. Sərgi "Nargis" jurnalının "Ekologiya" mövzusuna həsr olunmuş 63-cü nömrəsi ilə eyni vaxta təsadüf edib. Jurnal, üz qabığında – IDEA-nın təsisçisi Leyla Əliyevanın fotosu ilə nəşr edilib.***

"Nargis" komandası – ətraf mühitə laqeyd olmayan insanlardır. "Nargis" ekoloji brendləri dəstəkləyir, təbii sərvətlərə qənaət edir, eyni zamanda, geniş oxucu kütləsi qazanmış bir nəşr olaraq, hər birimizin Ana-Yer kürəsinin qorunmasını təşviq və təbliğ etməkdə öz məsuliyyətini hiss edir.

"Make the Earth Smile" adlı ekoloji layihə – insanın həyat fəaliyyətinin 13 ən vacib, Yer kürəsinə xüsusilə zərər verən böhranlı sahəsini özündə əks etdirən 13 instalyasiyadan ibarətdir. Layihənin məqsədi – gənc nəsli müsbət nəticələrlə yekunlanan yeni həyat tərzinə alışdırmaqdır. Sərgidə ətraf mühitə kömək etmək üçün hər birimizə tövsiyə olunan 13 faydalı vərdiş təsvir edilmiş "Nargis" kitabçaları paylanıb. 13 rəqəmi təsadüfən seçilməyib – 13 dekabrda "Nargis" jurnalı öz ad gününü qeyd edir.

Rəşad Ələkbərov, Orxan Hüseynov, Kənan Əliyev, Sabit Zamanov, Teymur Qəribov, Fərid Rəsulov, Nurəli Şahbazov, Nazim Şükürov öz instalyasiyalarını onlara tərəfdaşlıq edən Aquavita, Ay Qonşu, "AzərEnerji", "Azersun", "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, "Baku Steel Company", "Caspian Drilling Company Ltd", "Coca-Cola", Dr. Cahid Şahbazov, "Gilan Holding", "Nargis" Publishing House və "Veysəloğlu" Şirkətlər Qrupu ilə birgə yaradıblar.

Qeyd edək ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO) layihənin tərəfdaşlarından biridir. 160 ildən çox tarixə malik şirkət olaraq ASCO ictimai cavabdehliyi vacib sayır və Azərbaycanın təbiətinin gələcək nəsillər üçün qorunub saxlanılmasına yönəlik layihələrə dəstəyini əsirgəmir.

Sentyabrın 9-da sərginin rəsmi açılışına Leyla Əliyeva, "Nargis"in tərəfdaşları və dostları, xarici ölkələrin Azərbaycandakı səfirliklərindən nümayəndələr, nazirliklərdən nümayəndələr, sənətkarlar və qalereya sahibləri də daxil olmaqla çox insan qatılıb. Sərgini ziyarət edən Təhsil naziri Ceyhun Bayramov təhsil sistemi çərçivəsində "Nargis" Nəşriyyat Evi ilə gələcək əməkdaşlıq üçün ekoloji layihə təklif edib. Daha sonra başda Ülviyyə Mahmudova olmaqla "Nargis" Nəşriyyat Evinin komandası bulvarda zeytun ağacı əkib.

Bu, "Nargis" komandasının təşkil etdiyi ilk sərgi deyil: bu ilin aprel ayında İstanbulda, "Nargis" Nəşriyyat Evi, jurnalın mövcud olduğu altı il ərzində çəkdiyi eksklüziv fotoşəkillərdən ibarət sərgi təqdim etmişdi, iyul ayında isə Bakıdakı Müasir İncəsənət Muzeyində "Women, Children and Well-Being" adlı xeyriyyə sərgisi keçirmiş və foto satışından əldə olunan pulun bir hissəsini "Nargis" xeyriyyə fonduna yönəltmişdir.

"Make the Earth Smile" sərgisi oktyabrın 5-dək davam edəcək. Giriş sərbəstdir.

# Xəzər dənizinin Azərbaycan hissəsinin adalarında aparılan kompleks tədqiqatlar böyük əhəmiyyət kəsb edir

***Təbiətdə hər şey bir-biri ilə sıx bağlıdır. Ayrıca götürülmüş bir elementin öyrənilməsi istənilən nəticəni vermir. Tədqiqat obyektinin ekoloji mühiti ilə birlikdə kompleks şəkildə öyrənməklə daha çox informasiya əldə etmək olur. Zoologiya İnstitutu da dünya elmində gedən tendensiyalarla ayaqlaşaraq kompleks tədqiqatlara daha çox üstünlük verir.***



Bu fikirləri AZƏRTAC-a müsahibəsidə Azərbaycan Milli Elmlər Akademiyasının Zoologiya İnstitutunun direktoru Elman Yusifov deyib.

O bildirib ki, kompleks tədqiqatlar zamanı ətraf mühitin tədqiqat obyektinə təsiri özünü daha aydın şəkildə göstərir. Bununla da, tədqiq olunan canlını təbiətin mənfi təsirlərindən qorumağın yolları və istiqamətlərini də müəyyən etmək olur. Bu məqsədlə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin qərarına əsasən, Zoologiya İnstitutu, Coğrafiya İnstitutu, Torpaqşünaslıq və Aqrokimya İnstitutu, Geologiya və Geofizika İnstitutu, Neft-Qaz İnstitutunun, eləcə də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin bioloji müxtəlifliyin qorunması departamentinin əməkdaşlarının birgə iştirakı ilə Xəzər dənizinin Azərbaycan hissəsinin adalarına 3 ekspedisiya təşkil olunub. Ekspedisiyada adaların flora-fauna, landşaft, vulkanizm, relyef, torpaq örtüyü və s. ilk dəfə kompleks şəkildə tədqiq olunub.

Elman Yusifov vurğulayıb ki, Xəzər dənizinin Azərbaycan hissəsinin adalarında aparılan kompleks tədqiqatlar böyük əhəmiyyət kəsb edir. Çünki bizim ərazimiz materikdə yerləşir. Materikdəki canlıların coğrafi, geoloji, tarixi şəraitdə hərəkəti yerdəyişməsi məlumdur. Lakin adalardakı canlılar ya külək, ya uzaq məsafə qət edə bilən canlılar, ya da insanlar vasitəsilə yayılır. Ona görə də adalarda yaranan bioloji müxtəlifliyi, onun təkamül və inkişafını öyrənmək və onu materikdəki canlılarla müqayisə etmək elmi əhəmiyyət daşıyır.

"Ekspedisiyalar zamanı maraqlı nəticələr əldə etdik. Hazırda həmin nəticələrin emalı üzərində işlər gedir", - deyə institutun direktoru qeyd edib.

# Gəmilərin balıqovlama gücü artdıqca...

***Balıqçılıq sənayesi Yer kürəsinin milyardlarla sakinini zülalla təmin edir. Lakin dünya okeanının ehtiyatları sürətlə azalır.***



Britaniya Kolumbiyası Universitetinin tədqiqatçılarının məlumatına görə, bu problemin səbəblərindən biri balıqtutma texnologiyasının sürətli inkişafıdır.

Alimlərin işindən bəhs edən "Eurek Alert"in məlumatında bildirilir ki, mütəxəssislər gəmilərin balıqtutma gücünün dəyərləndirilməsinə həsr olunan 50 tədqiqatı təhlil ediblər. Məlum olub ki, exolot, GPS-naviqator və akustika kameraları kimi innovasiyaların tətbiqi balıqtutma həcmini ildə 2 faiz artırır.

Müəlliflərin dəyərləndirmələrinə görə, gəmilərin ovlama gücü hər 35 ildə iki dəfə artır. Bu isə o deməkdir ki, 10 ədəd yeni nəsil balıqtutma gəmisi 20 köhnə gəmini əvəz edə bilər.

İstehsal artımı hətta azalmış populyasiyaların belə əvvəlki balıq həcmini əldə etməyə imkan verir. Bu, ciddi problemdir, çünki belə praktika bir çox növləri yenidən istehsal olunmaq imkanından məhrum edir.

Müəlliflər qeyd edirlər ki, onların aşkarladıqları texnoloji tərəqqi dayanıqlı balıq ovunun qorunub saxlanması siyasətinin hazırlanmasında nadir hallarda nəzərə alınır. Adətən mütəxəssislər qısamüddətli tədqiqatlardan istifadə edir və balıqtutmanın innovasiya üsullarının tətbiqinə əhəmiyyət vermirlər. İşlərin yekununa görə tədqiqatçıların hazırladıqları yeni tənliyə əsasən texnoloji tərəqqini nəzərə almaq və tutulan balığın optimal həcmini hesablamaq mümkündür.

Bununla yanaşı, həddən artıq ovlanma balıq sürüləri üçün yeganə təhlükə deyil. Digər dəniz canlıları kimi onlar da qlobal istiləşmədən əziyyət çəkirlər.

# Baltik və Qara dənizi birləşdirəcək su yolu çəkiləcək

***Ukrayna hökuməti Baltik və Qara dənizin su yolu ilə birləşdirilməsi üzrə layihəni reallaşdırmağı planlaşdırır.***

"Ukrinform" agentliyi xəbər verir ki, bu barədə Ukraynanın Baş naziri Aleksey Qonçaruk Kiyev şəhərində keçirilən "Yalta Avropa Strategiyası" forumunda çıxışı zamanı deyib. Onun sözlərinə görə, qırx su yolu var və layihənin reallaşdırılması üçün Polşa və Belarus ilə razılığa gəlmək lazımdır.

Hazırda Baltik və Qara dənizi birləşdirəcək su yolunun çəkilməsi məsələsi Belarus, Ukrayna və Polşanın mütəxəssislər və siyasi dairələrində müzakirə edilir. Polşa bu layihəni daha aktiv dəstəkləyir, çünki əsas tikinti işləri onun ərazisində aparılacaq. Mütəxəssislərin fikrincə, üç ölkənin ərazisindən keçəcək kanalların vahid sisteminin uzunluğu 2 min kilometrdən çox olacaq.



# Rusiya sərhədçiləri KXDR-ə məxsus iki gəminin və 11 motorlu qayığın heyət üzvlərini saxlayıblar




***Rusiya sərhədçiləri Koreya Xalq Demokratik Respublikasına (KXDR) məxsus iki gəminin və 11 motorlu qayığın heyət üzvləri olan ümumilikdə 160 nəfəri saxlayıblar.***

Hadisə Yapon dənizinin Rusiyaya məxsus hissəsində baş verib. Rusiya Federal Təhlükəsizlik Bürosunun ictimaiyyətlə əlaqələr mərkəzinin məlumatına görə, KXDR vətəndaşları və sərhədçilər arasında yaralananlar var.

Hadisənin səbəblərinin araşdırılması üçün KXDR-in Rusiyadakı müvəqqəti işlər vəkili Xarici İşlər Nazirliyinə çağırılıb.

Sərhədçilər koreyalı brakonyerlərdən balıq ovu üçün qadağan edilmiş tilovlar götürüblər. Saxlanılan şəxslər Naxodka limanına aparılıb.

*Fəridə Abdullayeva*

# Miqrantların xilas edilməsi məsələsində Malta ilə İtaliya arasında narazılıq yaranıb

***Bir neçə gün öncə 90 miqrantı xilas edən İtaliya sahil mühafizəsinə Maltada ərazisində durmağa icazə verilməyib.***




Maltanın maltatoday.com.mt saytı xəbər verir ki, bu hadisə hər iki ölkə arasında yeni qarşıdurmaya səbəb olub.

Maltanın Silahlı Qüvvələrinin təmsilçisinin sözlərinə görə, xilasetmə işləri Maltanın axtarış-xilasetmə ərazisindən (SAR) kənarda baş verib.

İtaliya KİV-ləri xilasetmə işlərinin Malta sularında baş verdiyini bildirib. Malta tərəfi isə bunu əksini qeyd edir.

Məlumatda deyilir ki, İtaliya sahil mühafizəsi miqrantları taxta qayıqdan xilas etdikdən sonra Malta istiqamətində hərəkət ediblər. Xilasedicilər insanların ən yaxın və təhlükəsiz limana çatdırılmasına dair beynəlxalq hüquqda təsbit olunmuş prinsipə riayət ediblər.

Bildirilir ki, bu hadisə İtaliyada hökumət dəyişikliyindən sonra hər iki ölkə arasında yaşanan ilk qarşıdurma ola bilər.

*Asiman Əsədov*

# Dünya əhalisinin 24 faizi ərzaq qıtlığından əziyyət çəkir

***Hökumətlərarası İnkişaf Agentliyinin (IGAD) Afrika təşkilatı və Ərzaq Təhlükəsizliyi üzrə İnformasiya Şəbəkəsinin (FSIN) məlumatına görə, Afrikanın 7 ölkəsində 27 milyon insan aclıqla üz-üzədir.***



IGAD-ın hesabatında bildirilir ki, hazırda dünya əhalisinin 24 faizi ərzaq qıtlığı problemi ilə qarşılaşıb. Lakin Afrikanın yeddi ölkəsində - Cibuti, Efiopiya, Keniya, Somali, Sudan, Cənubi Sudan və Uqandada vəziyyət daha ağırdır. Bu ölkələrdə 27 milyon insan aclıq təhlükəsi ilə qarşılaşıb. Hesabat müəllifləri bildirirlər ki, Şərqi Afrikada acınacaqlı vəziyyətin yaranmasının səbəbləri iqlim dəyişikliyi nəticəsində quraqlığın artması, silahlı münaqişələr və iqtisadi tənəzzüldür.

Qeyd olunur ki, 2018-ci ildə Afrikanın kəskin ərzaq çatışmazlığından ən çox əziyyət çəkən ölkələri Efiopiya (8,1 milyon insan), Sudan (6,2 milyon) və Cənubi Sudan (6,1 milyon) olub. "Sudanda əhalinin 59 faizi, yaxud hər on nəfərdən altısı aclıqla üz-üzədir və onlara təcili ərzaq yardımı göstərilməlidir. Somalidə hər beş nəfərdən birindən çoxu (əhalinin 22 faizi) da kəskin qida çatışmazlığından əziyyət çəkir", -deyə hesabatda bildirilir.

IGAD-ın icraçı katibi Mahbub Maalim bu ölkələrdə aclıq və epidemiyaların qarşısını almaq üçün beynəlxalq təşkilatlara və donorlara müraciət ünvanlayıb.

# Təbiətə münasibət köklü surətdə dəyişdirilməlidir

***Dünyanın müxtəlif ölkələrindən olan alimlərin iştirakı ilə hazırlanan 2030-cu ilədək BMT-nin dayanıqlı inkişaf Hədəflərinə dair növbəti hesabatda deyilir ki, hazırkı inkişaf modeli bəşəriyyətin gələcəyi üçün təhlükəlidir. Qeyd olunur ki, son iyirmi ildə əhalinin rifahının yüksəldilməsi istiqamətində müəyyən artım müşahidə olunsa da, bu proses dövlətlər üçün bumeranq effekti verə və yoxsulluğun daha da artmasına səbəb ola bilər. Hesabatda vurğulanır: "Təbiətə münasibətin kardinal surətdə dəyişdirilməsi, insanlar arasında bərabərliyin daha çox təmin olunması, neft-qaz və plastik maddələrdən imtina edilməsi insanlığın gələcəyi üçün mühüm amillərdir".***



BMT-nin saytı xəbər verir ki, hesabatın Nyu-Yorkda keçirilən mətbuat konfransında təqdimatı zamanı əsas diqqət iqtisadi inkişafın ətraf mühitin korlanması hesabına davam etməsinə yönəldilib. Vurğulanıb ki, bu inkişaf modeli yüz milyonlarla insana rifah gətirsə də, planetimizdə yoxsulların sayı daha da artıb. Belə ki, hazırda iki milyard insan ərzaq qıtlığından əziyyət çəkir, onlardan 820 milyonu isə aclıqla üz-üzədir. Digər tərəfdən, 2 milyard insan da faydasız qidalanma üzündən piylənmədən əziyyət çəkir. Onlardan 40 milyon 5 yaşına qədər olan uşaqlardır. Eyni zamanda, planetimizdə 1 milyarda yaxın insan elektrik enerjisindən məhrumdur.

Hesabat müəlliflərinin qənaətinə görə, 2030-cu ildə sayı 8,5 milyard nəfərə çatacaq dünya əhalisini yoxsulluqdan qurtarmaq və daha yüksək rifaha malik olmaq hələ də mümkündür. Onların proqnozlarına əsasən, 2017-2060-cı illərdə dünyada maddi nemətlərin istehlakı iki dəfə artaraq 89 gigatondan 167 gigatona çatacaq. Lakin bu dərəcədə böyük miqdarda istehlak cəmiyyətdə qeyri-bərabərliyi artıracaq və atmosferə daha çox parnik qallarının emissiyasına səbəb olacaq. Digər tərəfdən, iqlim dəyişiklikləri dünyada biomüxtəlifliyin də azalmasına gətirib çıxaracaq.

Mətbuat konfransında çıxış edən Bern Universitetinin professoru Peter Mersseli vurğulayıb ki, hazırkı inkişaf trayektoriyası bəşəriyyətin gələcəyini təhdid edir. Onun sözlərinə görə, istehsalın artması fonunda torpağın deqradasiyası və qlobal istiləşmə prosesləri baş verir. Alimlər hökumətlərə müraciət ediblər ki, bu məsələlərlə bağlı qərarlar qəbul edilməsi zamanı elm adamları ilə məsləhətləşmələr aparılsın.

Hesabat müəllifləri qeyd ediblər ki, ilk növbədə, ərzaq, energetika, istehlak və şəhərlərin idarəçiliyi sistemi dəyişdirilməlidir. Bunun üçün hökumətlər, özəl sektor, yerli icmalar, vətəndaş cəmiyyətləri və sadə vətəndaşlar arasında sıx əməkdaşlıq mühiti olmalıdır.

# Şərqi Egey dənizində axtarış-xilasetmə işlərinin aparılmasında pilotsuz uçuş aparatından istifadə olunur

***Yunanıstan sahil mühafizə xidməti Samos adasında pilotsuz uçuş aparatı (PUA) vasitəsilə miqrantların axınını nəzarətdə saxlamağa başlayıb. PUA Yunanıstan sərhədini qanunsuz şəkildə pozan şəxslərin müəyyənləşdirilməsində və Şərqi Egey dənizində axtarış-xilasetmə işlərinin aparılmasında mühüm rol oynayır.***



Sərhəd xidmətinin verdiyi məlumata əsasən, Avropa İttifaqının "Frontex" təşkilatı tərəfindən təqdim olunan, radar və istilik kamerası ilə təchiz edilən 35 metrlik PUA min metr yüksəklikdə uça bilir.

Miqrantların üz tutduqları əsas adalardan olan Samos adasında qaçqınlar problemi kritik vəziyyətdədir.

# Qayıqla qanunsuz olaraq Yunanıstana keçmək istəyən 40 nəfər saxlanılıb

***Türkiyənin Edirne şəhərinin Enez rayonu sahillərinə yaxın bölgədə qayıqla qanunsuz olaraq Yunanıstana keçmək istəyən 40 nəfər saxlanılıb.***

Ölkənin Sahil Mühafizə Xidmətinin əməkdaşları tərəfindən saxlanılanların Əfqanıstan və İran vətəndaşları olduqları müəyyən edilib. Onlardan 15-i uşaq, 10-u qadındır.

Köçkünlər həkim müayinəsindən keçirildikdən sonra aidiyyəti qurumlara təhvil veriliblər.

*Günel Məlikova*



# Sakit okeanın suları təhlükəli səviyyəyə qədər istiləşib



***"Sakit okean sularının istilik dalğası-2019": alimlər aşkar edilmiş anomaliyanı belə adlandırıblar. Anomaliya Şimali Alyaskadan başlamış Cənubi Kaliforniyayadək uzanan ərazidə müşahidə olunub. "Vesti.ru" xəbər verir ki, həmin ərazidə suyun temperaturu təhlükəli səviyyəyə qədər yüksəlib. Bəzi yerlərdə suyun temperaturu normadan 6 dərəcə yüksək olub. Ekspertlər həyəcan təbili çalırlar: suyun istiləşməsi davam etsə, fəlakət baş verə bilər.***

Artıq vəziyyət elə bir böhranlı səviyyəyə çatıb ki, anomaliya bütün qərb sahilboyu ərazi boyunca dəniz faunasının kökünün kəsilməsinə və balıqçılığın məhv olmasına gətirib çıxara bilər. Söhbət həmin ərazidə qızılbalıq populyasiyasının məhv olmasından gedir. Əgər suyun temperaturu uzun müddət 20 dərəcə səviyyəsində olsa, cavan qızılbalıqların sağlamlığına mənfi təsir göstərəcək və onların balaları kürü tökmək üçün yer tapa bilməyəcək. Temperaturun 22,8 dərəcəyə qədər yüksəlməsi isə balıqlar üçün ölümcül haldır.

Alimlər "qatil damcı" adlandırılmış oxşar anomaliyanı 2014-cü ildə müşahidə ediblər. O dövrdə məhdud ərazidə temperaturun orta hesabla 7 dərəcə yüksəlməsi yüz milyonlarla dəniz heyvanının məhvinə gətirib çıxarmışdı. Alimlər bildirirlər ki, əgər vəziyyət analojidirsə, onda bu hal müvəqqətidir. Ancaq artıq məlumdur ki, anomaliya 5 il əvvəl olduğu kimi güclü təsir göstərəcək.

Kaliforniyada yerləşən NOAA elmi mərkəzinin mütəxəssisi Neyt Mantua deyib: "Adətən okean temperaturunun bu dərəcədə güclü dəyişməsi üçün xeyli vaxt tələb olunur, lakin indiki halda biz radikal temperatur dəyişmələrini cəmi 3 ay ərzində müşahidə etdik".

# Yarımada adaya çevrilib

***Norveçdə buzlaqların əriməsi nəticəsində yarımada adaya çevrilib.***

Norveç KİV-ləri xəbər verir ki, Şpitsbergendə arktik Norveç arxipelaqında sahəsi 10 kvadratkilometrə yaxın olan yeni ada yaranıb.



Qurunun bu hissəsi onilliklər boyu yarımada hesab edilirdi, lakin bu il yayda buzlaqların əriməsi nəticəsində başqa mənzərə yaranıb. Tromsö şəhərindəki Norveç Qütb Tədqiqatları İnstitutunun topoqrafı Anders Skoqlund yerli jurnalistlərlə söhbətində deyib: "Buzlağın əriyib sahildən uzaqlaşdığı yerdə çəkilmiş yeni fotoşəkillərdə dənizin göy rəngli zolağı yaranıb. Şpitsbergendəki buzlaqlar son illərdə sürətlə əriyib uzaqlaşıblar. Bu, dənizə çıxan buzlaqlara da aiddir. Onlar qurudakı buzlaqlarla müqayisədə daha sürətlə əriyir".

Şpitsbergenin şimal-şərq sahillərində yeni adanı Anders Skoqlund kəşf edib. İnstitut burada Şpitsbergen rayonu barədə kartoqrafik məlumatlar yaradılması üzərində işləyir.

Tromsö şəhərindəki Norveç Qütb Tədqiqatları İnstitutunun buzlaqları tədqiq edən əməkdaşı Qeyr Moxoldt isə jurnalistlərə müsahibəsində bildirib ki, bu proses davam edir. Çox güman ki, gələcəkdə uzaq şimalda yeni kiçik adalar yaranacaq. Alim daha sonra deyib: "Lakin bu proses onilliklər boyu, bəlkə də 100 il davam edəcək".

***Rauf Əliyev***

# "Tranzit məntəqələri" funksiyasını yerinə yetirəcək miqrant düşərgələrinin yaradılması barədə qərar qəbul edilib

***Yunanıstan hökuməti yeni "tranzit məntəqələri" funksiyasını yerinə yetirəcək iki miqrant düşərgəsinin yaradılması barədə qərar qəbul edib. Burada adalardan gətirilən miqrant və qaçqınlar yerləşdiriləcəklər. Düşərgələrdən birincisi Karavomilos şəhərindəki qapalı hərbi bazada, ikincisi isə Korinf şəhərindəki köhnə düşərgənin yanında inşa ediləcək.***



Vətəndaşların Müdafiəsi Nazirliyinin məlumatına əsasən, ayın sonuna kimi fəaliyyətə başlayacaq hər iki düşərgədə 900 miqrant və qaçqına xidmət göstəriləcək.

Yunanıstan qaçqın və miqrantlar problemini hələ də həll edə bilməyib. Bir tərəfdən, Avropa İttifaqı ölkəyə gələn miqrantları qəbul etməyə çağırır, digər tərəfdən isə Yunanıstana gələn miqrantlar öz problemlərinin, sənədlərinin həllini illərlə gözləyərək ölkədəki düşərgələrdə qalırlar. Bütün bunlar yerli əhalini narahat edir, bununla bağlı etirazlar baş verir. Hökumət isə problemin tezliklə həll olunacağını vəd edib.

***İqbal Hacıyev***

# Səyahət gəmisi batıb

***Hindistanın Andhra Pradeş ştatında səyahət gəmisinin batması nəticəsində ən azı 11 nəfər ölüb, bir neçə nəfər itkin düşüb.***



Hindistan KİV-lərinin verdiyi məlumata görə, hadisə Qodavari çayında baş verib. Göyərtəsində təxminən 60 nəfərin olduğu gəmi Qandipoçamma məbədindən Papikondalu turizm məkanına doğru gedirmiş. Dərhal hadisə yerinə xilasedicilər cəlb olunub.

Bildirilir ki, qəzaya səbəb son günlər şiddətli yağışlar üzündən həmin çayda iti su axını olub.

# Buzlağın çökməsi nəticəsində 1 balıqçı ölüb, daha ikisi itkin düşüb



***Danimarka Krallığının tərkibində olan Qrenlandiyanın qərbindəki Uummannaq rayonunda bir buzlağın çökməsi nəticəsində 1 balıqçı ölüb, daha ikisi itkin düşüb.***

BBC telekanalının saytı xəbər verir ki, Qrenlandiya polisinin yaydığı məlumatda həmin rayonda nəhəng buzlağın bir hissəsinin qopduğu və orada olan balıqçılardan birinin həlak olduğu, digər ikisinin itkin düşdüyü bildirilir.

Qeyd olunub ki, itkin düşmüş balıqçıların axtarışı davam edir. Eyni zamanda, qopan buz parçalarının dənizdə güclü dalğalara səbəb olmasını nəzərə alan hakimiyyət təmsilçiləri əhaliyə onlardan uzaq durmağı tövsiyə edib.

Xatırladaq ki, ərazisinə görə dünyanın ən böyük adası olan Qrenlandiyada qlobal istiləşmənin təsiri nəticəsində buzlaqlar əriməkdə davam edir. CNN telekanalının xəbərinə görə, iyul ayında müşahidə olunan qızmar havalardan sonra burada 197 milyard ton buzlaq sahəsi əriyib.

# Nəhəng buzlaq tamamilə ərisə, dünya okeanında suyun səviyyəsi yarım metr qalxacaq

***Antarktidadakı Tueytsa buzlağının 40 il ərzində dörddəbir hissəsi nazilib. O, ehtimal edildiyindən daha sürətlə əriyir. Əgər nəhəng buzlaq tamamilə əriyərsə, o zaman dünya okeanında suyun səviyyəsi yarım metr qalxacaq.***



Bu barədə "nat-geo.ru" saytı xəbər verir.

Tədqiqatçılar Tueytsa şelf buzlağının qalınlığının öyrənilməsi üçün radiolokasiya məlumatlarından istifadə ediblər. Onlar ötən əsrin 70-ci illərinin məlumatlarını müasir göstəricilərlə birləşdiriblər.

Məlum olub ki, 1978-ci ildən 2009-cu ilədək şelf buzlağının qalınlığı bəzi yerlərdə 33 faiz azalıb. Tueytsa ümumilikdə, bu dövr ərzində təxminən özünün dörddəbir sahəsini itirib.

"1970-ci illərdə Antarktikanın buz örtüyünün təxminən yarısı bort çəkilişlərinin köməyi ilə sistematik olaraq tədqiq edilib", - deyə arxiv məlumatları ilə 20 ildən çox məşğul olan professor Martin Zigert bildirib.

"Buz qalınlığının bu ilk ölçüləri 40 ildən sonra böyük əhəmiyyət kəsb edir. Çünki həmin ölçülər buz örtüyünün son onilliklərdə baş verən dəyişikliklərini görməyə şərait yaradır", - deyə alim əlavə edib.

Kaliforniyanın Stenford Universitetindən olan geofizik Dastin Şröder isə deyib: "Bu qeydlərə malik olarkən biz indi şelf buzunun harada nazikləşdiyi və dağıla biləcəyi sahələrini görə bilərik. Bu, kifayət qədər çətin keçilə bilən rayondur və bəxtimiz onda gətirib ki, 70-ci illərin tədqiqatçıları təsadüfən bu şelf buzlağının üzərindən uçublar".

Amundsen dənizində yerləşən Tueytsa buzlağı Vaşinqton ştatının sahəsinə bərabər ərazini tutur. O, dəniz səviyyəsinin qalxmasının proqnozlaşdırılmasında əsas obyektdir. Bu yaxınlarda buzlaqda 300 metr dərinlikdə boşluq müşahidə edilib ki, bu da buzlağın sürətlə əriməsinin daha bir sübutudur.

Buzlaq ildə 800-2000 metr yerini dəyişir. Hazırda Tueytsa buzlağına digər buzlaqlar da söykənir. Əgər bu buzlaq əriyərsə, o zaman həmin buzlaqlar okeana sürüşəcəklər.

# Balığa futbol klubunun adı verilib

***Türkiyə dənizlərində ilk dəfə görülən 31 santimetr uzunluğu, bir kiloqram ağırlığı olan balığa "Fənərbağça" adı verilib.***



Türkiyənin İskəndərun Texnik Üniversiteti tərəfindən İskəndərun Körfəzində aparılan araşdırmalar zamanı dünya tibb ədəbiyyatında "Pomacanthus imperator" kimi tanınan balıq növünə rast gəlinib.

Bu canlının daha çox tropik dənizlərdə yaşadığı bildirilir.

Türkiyə dənizlərində ilk dəfə görünən canlının sarı-göy rəngdə, zolaqlı olması Türkiyənin məşhur Fənərbağça futbol klubunun bayrağını xatırladır. Bu səbəbdən balığa futbol klubunun adı verilib.

***Günel Məlikova***

# Temperaturun 3-4 dərəcə yüksəlməsi adaptasiya qabiliyyətimizi xeyli məhdudlaşdıracaq

***Qlobal istiləşmə bir çox sektorlarda xərclərin artmasına gətirib çıxarır. İnvestisiya yatırılması zərurəti, eləcə də onun həcmi artıq uzun illərdir gərgin debatlar mövzusuna çevrilib. Özü də maliyyə vəsaiti təkcə qlobal istiləşmənin yanğınlar və qasırğalar şəklində nəticələrinə qarşı mübarizə aparmağa tələb olunmur. Qazıntı şəklində yanacaqdan istifadənin azaldılmasına, habelə prosesi yavaşıdan texnologiyalara da külli miqdarda vəsait yatırılmalıdır.***



Rəsmi orqanların və özəl firmaların nümayəndələrindən ibarət Beynəlxalq Adaptasiya Komissiyası ölkələrə və korporasiyalara elan edib ki, dəyişməkdə olan şəraitə adaptasiyaya yönəldilmiş islahatlara başlamaları üçün onların hələ 15 ay vaxtı var. "Bloomberg" xəbər verir ki, Paris İqlim Sazişini imzalamış tərəflər sənədin beşinci ildönümünün qeyd ediləcəyi 2020-ci ildə BMT paktı üzrə öz milli öhdəliklərini yeniləməyi planlaşdırırlar.

Qlobal Adaptasiya Komissiyası həm iqtisadi, həm də sosial sahələrin iqlim dəyişmələrinin nəticələrinə qarşı mübarizəyə hazırlığına əlavə zəmanəti təmin etmək üçün yaradılıb. Komissiya maliyyə və iqtisadi stimullar da axtarmalıdır. Məsələn, indiki tədbirlər gələcəkdə trilyonlarla dollara qənaət etməyə imkan verəcək.

Komissiyanın hesabatında deyilir ki, "Microsoft" korporasiyasının banisi Bill Geys, BMT-nin keçmiş baş katibi Pan Gi Mun və Dünya Bankının əsas icraçı direktoru Kristalina Georgiyeva başda olmaqla 34 nəfərdən ibarət qrup belə qənaətə gəlib ki, 1,8 trilyon dollar məbləğində investisiyalar 2030-cu il üçün beş kateqoriyada - iqlim məlumatlandırma/xəbərdarlıq sistemi, infrastruktur, əkinçilik, manqra meşələrinin mühafizəsi və su resurslarının idarə edilməsi kateqoriyalarında cəmləşdirilməlidir. Bu beş vektora yönəldilən investisiyalar nəticədə 7,1 trilyon qazanc gətirəcək.

Planetimiz XIX əsrdən etibarən Selsi ilə 1 dərəcə ( Farengeyt üzrə 1,8 dərəcə) istiləşib. 2015-ci ildə imzalanmış Paris İqlim Sazişi insan fəaliyyətinin səbəb olduğu qlobal istiləşmə üçün Selsi ilə 2 dərəcə təqribi yuxarı hədd müəyyən edib. Sazişin yaradıcıları və iştirakçıları fakt üzrə 1,5 dərəcə məhdudiyyətə əməl etmək niyyətindədirlər. Lakin dörd il sonra ekspertlərin əksəriyyəti bildirirlər ki, qlobal istiləşmə hər iki həddi üstələyəcək. Onların fikrincə, temperaturun 3-4 dərəcə yüksəlməsi ekoloji sistemlərdə və ya iqlim modellərində labüd dəyişikliklərə gətirib çıxaracaq ki, bu dəyişikliklər də bizim adaptasiya qabiliyyətimizi xeyli məhdudlaşdıracaq.

# Təbii fəlakətlər nəticəsində insanların köç etməsi halları adi normaya çevrilməkdədir

***2019-cu ilin birinci yarısında iqlim dəyişməsi nəticəsində 7 milyon adam məcburi köçkünə çevrilib. Beynəlxalq Daxili Köç Monitorinqi Mərkəzinin (IDMC) hesabatında qeyd olunur ki, bu rəqəm son illərin ən yüksək göstəricisidir. Hesabat hökumətlərin məlumatları, BMT-nin agentliklərinin tədqiqatları və media orqanlarının materialları əsasında hazırlanıb.***



SBS telekanalı xəbər verir ki, IDMC-nin hesabatında iqlim dəyişmələrinin və təbiət kataklizmlərinin bu templə davam edəcəyi halda bu rəqəmin ilin sonunda 22 milyona çatacağı da bildirilir. Əlavə olunur ki, güclü qasırğaların, sel və daşqınların nəticəsində daha çox insan öz ev-eşiyini tərk etməyə məcbur olur. "Bu amillər sayəsində 2019-cu il planetin tarixində ən pis məcburi köç ili kimi qala bilər", - deyə hesabat müəllifləri vurğulayıblar.

Hesabatda qeyd edilir ki, bu ilin birinci yarısında "Fani" siklonu Hindistan və Banqladeşdə, "Idai" isə Mozambik, Malavi, Zimbabve və Madaqaskarda milyonlarla insanı öz yurdlarını tərk etməyə vadar edib. Hesabat dövründə İranda ərazinin 90 faizi daşqınlara məruz qalıb. "Bu gün artıq təbii fəlakətlər nəticəsində insanların köç etməsi halları adi normaya çevrilməkdədir", - deyə IDMC diqqətə çatdırıb.

Mərkəzin direktoru Aleksandra Bilak bütün dünyada təbii fəlakətlərin qarşısının alınması və onların qurbanlarına yardım göstərilməsi üzrə birgə fəaliyyətin zəruriliyini vurğulayıb. O əlavə edib ki, iqlim dəyişikliklərinə qarşı mübarizəyə sərmayə qoymaqla gələcəkdə milyonlarla insanı humanitar fəlakətdən qorumaq mümkündür.

# Yaşamalı şəhərlər

***Avstriyanın paytaxtı Vyana şəhəri dünyanın ən yaşamalı şəhərləri siyahısında birinciliyi qoruyub saxlayıb.***




Böyük Britaniyanın "The Economist" qəzetinin təqdim etdiyi renkinq cədvəlində Vyana Avstraliyanın Melburn şəhərini qabaqlayaraq dünyanın 140 metropolu arasında növbəti dəfə birinci yerə çıxıb.

Həftəlik qəzetə məxsus "Economist Intelligence Unit" analitik mərkəzi tərəfindən artıq ikinci dəfə hazırlanmış renkinqdə Vyana şəhərinə 100 mümkün xaldan 99,1 xal verilib. Renkinqdə şəhərlərin müqayisəsi sabitlik, ictimai-mədəni tədbirlər proqramı, ətraf mühit və səhiyyə kateqoriyaları üzrə aparılıb.

Siyahıda sonrakı yerləri Melburn, Sidney (hər ikisi Avstraliya), Osaka (Yaponiya), Kalqari, Vankuver və Toronto (hər üçü Kanada), Tokio (Yaponiya), Kopenhaqen (Danimarka) və Adeliada (Avstraliya) şəhərləri tutur. Sonuncu yerlərdə isə Laqos (Nigeriya), Daka (Banqladeş) və Dəməşq (Suriya) şəhərləri dayanır.

Qeyd edilməlidir ki, müxtəlif beynəlxalq təşkilatlar və mərkəzlər mütəmadi olaraq dünya şəhərlərinin renkinqini hazırlayır. Onların arasında ən nüfuzlusu insan resursları üzrə "Mercer" beynəlxalq konsaltinq mərkəzinin təqdim etdiyi siyahıdır. Vyana şəhəri həmin siyahıda da on ildən bəri birinciliyi özündə saxlayır.

# YARIZARAFAT, YARIGERÇƏK

**Cəhənnəmlik o qədər iş görən var ki... Cəhənnəm varsa-əla! Yoxdursa, kaş Cəhənnəm olaydı.**

**Adam var, əsl üzünü elə gizlədir, hətta Əzrayıl da çətin tanıya.**

**Qəlp pullara görə cəza verilən ölkələrdə qəlp adamlar üçün niyə cəza olmasın?**

**İnsanlığın şəhidləri olmasa, insanlıq yaşamaz.**

**Taleyə inanırsansa, taleyə kömək et.**

**Biz həmişə nəyisə gözlədiyimiz kimi, bizi də həmişə nə isə gözləyir.**

**Ən böyük problemimiz özümüzük.**

**Dənizlər çoxunun sevdiyi, dənizçilər isə dənizin seçdikləridir.**

**Baxan çoxdu. Özünə yaxşı bax.**

**Ailə insan üçün hər şeydir. Deməli, ailəsi olanın hər şeyi var.**

**Mərhəmətin nə olduğunu bilməyən də Allahdan mərhəmət gözləyir.**

**Axmaqlar da böyük işlər görürlər. Axmaq işlərin ən böyüyünü.**

**Səhv etməyə tələsmə. Onsuz da səhv edənlər qədərincədir.**

**Özünü hər gün aldadanın başqalarını aldatmadığına inanmaq olar?**

**Yaxşılıq etməyi unudan gündən insan olmuruq.**

**Haqsızlıq görəndə tükü də tərpənməyənin barı başı keçəl ola.**

**Eyni səhvi təkrar etməkdənsə, başqa səhvlər et.**

**Abırlarını ətəklərinə bükməsinlər deyə qısa don geyinirlər?**

**Qapıçılar həqiqəti içəri buraxmamaq üçündür?**

**Bir-birimizə nifrətimizi düşmənə yönəltsək nə nifrətimiz qalar, nə düşmənimiz.**

**Necə baxırsansa, o cür də görürsən.**

**Niyəsini bilmədiyim o qədər şeylər var ki...**

**Xoşbəxtlikdən çox şeyim olmayıb və olan şeylərimdən də çox olmayıb. Bəlkə ona görə qədrini bilmişəm?**

**Heş kəs ağladığımı görməyib. Göz yaşlarımı içimə axıtmışam.**

**Adam var, ömründə bir kitab oxumayıb, amma gündə bir kitablıq yalan danışır.**

**Adam var, işi-peşəsi başqalarının vaxtını almaqdır, sonra da deyir ki, heç kimdən heç nə almamışam.**

**Beləsindən hara qaçasan:nə sual verə bilir, nə cavab.**

**İnamın ən pisi hər şeyə inanmaqdır.**

**Bir düzü olmayanın min üzü olar.**

**Həqiqətin üstündən keçənləri yalan əvvəl-axır ayaqaltı edər.**

**Arxasızların arxasınca necə danışmaq olar?**

**Udmağı öyrənməyiniz naminə, hər gün mənimlə savaşmağınıza da razıyam.**

**Yolunu azmışlar var, bir də düz yolu getmək istəməyənlər.**

**Bəziləri ilə hansı dildə danışmağın fərqi yoxdur. Onsuz da başa düşmək istəmirlər.**

**Dürüstlüyüm sizə problem yaradır? Mənə də!**

**Ağıllarını başlarından alırlarsa, qadınlara münasibətdə kişilərdən ağıllı heç nə gözləməyə dəyməz.**

**Təsəllidən başqa sizə nə verirlərsə, bir gün əvəzini istəyəcəklər.**

***Rasif TAHİROV***

# Yelkənçilər məharətlərini nümayiş etdiriblər

***Azərbaycan Yelkənli İdman Federasiyasının (SFA) təşkilatçılığı ilə "Federasiya kuboku 2019" turniri keçirilib.***

Yarışda SFA-nın yelkənçiləri, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin "Xəzər" Yelkənli Qayıqlar İdman Klubu, eləcə də "Dənizçi" Yelkənli İdman Klubunun üzvləri mübarizə aparıblar.

Optimist", "Laser4.7", "Laser Radial", "Laser Standart" sinifləri üzrə keçirilən yarışlarda 30 idmançı iştirak edib. İdmançılardan 18-i "Optimist", 5-i "Laser4.7", 3-ü "Laser Radial", 4-ü isə "Laser Standart" sinfi üzrə məharətlərini nümayiş etdiriblər.

Federasiya kuboku uğrunda yarış Azərbaycan Yelkənli İdman Federasiyasının idman meneceri Burcu Alqon Giorgianninin baş hakimliyi, federasiyasının baş məşqçiləri Seyhun Yıldızın, Tuğçə Subaşının, məşqçi Anton Vilyayevin, "Xəzər" klubunun direktoru Tatyana Srebnayanın hakimliyi ilə baş tutub. Gün ərzində ən azı üç dəfə açıq dənizə çıxan yelkənçilər Federasiya kuboku uğrunda gərgin idman mübarizəsi aparıblar.








"Optimist" sinfi üzrə yarışın ümumi yekununda Murad Hacızadə birinci, Ayla Babayeva ikinci, Fidan Ağazadə (hər üçün SFA) isə üçüncü yeri tutublar.

"Optimist" sinfi üzrə qızlar arasında mübarizənin yekununda Ayla Babayeva, Fidan Ağazadə və Kristina Kərimova (hər üçün SFA) müvafiq olaraq ilk üç pillədə qərarlaşıblar.

"Laser4.7" sinfi üzrə yelkənçilərdən Murad Allahverdi (SFA) birinci, İsmayıl Kərimov (SFA) ikinci, Fərid Cəfərov ("Dənizçi") isə üçüncü olublar.

"Laser Radial" sinfi üzrə yarışın yekununda Cavid Kərimov (SFA), Aslan Məmmədov ("Xəzər") və Rauf Abdullayev ("Xəzər") müvafiq olaraq fəxri kürsüdə yer alıblar.

"Laser Standart" sinfi üzrə isə Mixail Protasov ("Xəzər") birinci, Nikita Vilayev ("Dənizçi") ikinci, Vaqif Qasımov ("Xəzər") isə üçüncü pillələrdə qərarlaşıblar.

Mükafatlandırma mərasimində qaliblərə, həmçinin yay məktəbində iştirak edərək məşqlər zamanı yüksək nəticə qazanan iştirakçılara sertifikatlar və hədiyyələr təqdim olunub.

Qeyd edək ki, SFA-nın üç ay ərzində təşkil etdiyi yay məktəbinə 16 uşaq qatılıb. Bunlardan 7-si yüksək nəticə göstərib.

2014-cü ildən ASCO-nun nəzdində fəaliyyət göstərən "Xəzər" Yelkənli Qayıqlar İdman Klubunun potensialı mütəmadi inkişaf etdirilir. Budəfəki Federasiya kubokunda "Xəzər" klubunun "Optimist" sinfi üzrə dörd yelkənçisi məharətini müasir, yeni qayıqlarda nümayiş etdirib.

Məlumat üçün bildirək ki, ASCO-nun "Xəzər" Yelkənli Qayıqlar İdman Klubunun idmançıları müxtəlif yerli və beynəlxalq yarışların qalibi olublar. Hazırda klubda üç məşqçi "Laser" sinifi üzrə 12, "Optimist" sinifi üzrə isə 4 idmançı hazırlayır.

## Dənizçilər arasında voleybol turniri keçirilib



***"Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun meydançasında "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) işçiləri arasında voleybol turniri keçirilib.***

ASCO-nun Sosial inkişaf və nəqliyyat şöbəsinin təşkilatçılığı ilə baş tutan voleybol turnirinin qalibi "Bibiheybət" Gəmi Təmiri Zavodunun komandası olub. Sonrakı yerləri "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodu və "ASCO Mühafizə"nin voleybolçuları tutublar.

Qaliblərə diplom və hədiyyələr verilib.

Qeyd edək ki, voleybol üzrə turnirin təşkilində məqsəd dənizçilərin sağlamlığının möhkəmləndirilməsi, onları bədən tərbiyəsi və idman məşğələlərinə cəlb etməklə asudə vaxtlarının səmərəli keçməsini təmin etmək, eləcə də ən yaxşı idman kollektivlərini müəyyən etməkdən ibarətdir.

## Moskvada keçirilən mini-futbol turnirində "ASCO Dənizçi" 16 komanda arasında II yeri tutub

***14-15 sentyabr tarixlərində Moskvada "Dəniz və çay limanlarının V Kuboku" beynəlxalq xeyriyyə mini-futbol turniri keçirilib.***

"Spartak" stadionunda baş tutan turnirdə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) futbol komandası da iştirak edib. Ümumilikdə 16 komandanın qatıldığı yarış gərgin mübarizə şəraitində baş tutub.

Komandamız dörddəbir finalda Vladivastokun təmsilçiləri ilə üz-üzə gəlib. Oyun 4:0 hesabı ilə "ASCO Dənizçi"nin xeyirinə başa çatıb.

Yarımfinalda futbolçularımız turnirin üççat qalibi "Seremetyevo Xendlinq" komandası ilə üz-üzə gəlib. Bu dəfə də oyun "ASCO Dənizçi"nin üstünlüyü ilə başa çatıb - 2:1.

Finalda ASCO-nun təmsilçilərinin rəqibi Həştərxan Xəzər Dəniz Gəmiçiliyi olub. Gərgin keçən mübarizədə komandamız qapısından bir cavabsız top buraxmaqla qələbəni əldən verib.

Beləliklə, "ASCO Dənizçi" 16 komanda içərisində II yeri tutub və turnirə ilk dəfə qatılan komanda olaraq peşəkar oyun nümayiş etdirdiyinə görə, xüsusi kuboka layiq görülüb.

Qeyd edək ki, "Dəniz və çay limanlarının Kuboku" beynəlxalq xeyriyyə mini-futbol turnirin keçirilməsində məqsəd çay və dənizçilik şirkətləri arasında dostluq əlaqələrini qorumaq və möhkəmləndirmək, bədən tərbiyəsi və sağlam həyat tərzini təbliğ etməkdən ibarətdir.







## "Xəzər" Yelkənli Qayıqlar İdman Klubunun məşqçiləri təlimçi kurslarını müvəffəqiyyətlə başa vurublar



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) "Xəzər" Yelkənli Qayıqlar İdman Klubunun məşqçiləri Tatyana Srebnaya və Mixayil Protasov "SFA WINDSURF" təlimçi kurslarında iştirak ediblər. Hər iki məşqçi kursu müvəffəqiyyətlə bitirərək xüsusi sertifikatlara layiq görülüb.***

Türkiyə Yelkənli İdman Federasiyasının təlim komitəsinin üzvü və məşqçi-təlimçisi Serhan Balcının iştirakı ilə baş tutan təlimdə "SFA WINDSURF" üzrə qayıqların hazırlanması, onların dənizdə düzgün istifadəsi kimi mövzularda məşğələlər keçirilib.



Kursda ümumilikdə 15 nəfər iştirak edib.

## "ASCO Dənizçi" "Timsport"-a 5:1 hesabı ilə qalib gəlib

***AFFA-nın təşkilatçılığı ilə keçirilən Futzal çempionatı üzrə II liqanın ikinci turunda "ASCO Dənizçi" "Timsport" komandası ilə qarşılaşıb.***

Oyun "ASCO Dənizçi"nin üstünlüyü ilə başa çatıb. Dənizçilər 5:1 hesabı ilə qalib gəliblər.

Qeyd edək ki, "ASCO Dənizçi" sözügedən çempionatda ilk dəfə iştirak edir. Komandanın tərkibi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) sturukturlarında çalışan əməkdaşlardan ibarətdir.





Onu da əlavə edək ki, Futzal üzrə ikinci liqada yeni mövsümə sentyabrın 15-də start verilib. Ancaq çempionat təxirəsalma ilə başlayıb. "ASCO Dənizçi" - "Bibi-Heybət" oyunu birincilərin beynəlxalq turnirdə iştirakı səbəbindən qeyri-müəyyən müddətə təxirə salınıb.

## Təzyiqin aşağı salınmasının ən sadə üsulu yuxudur




***Arterial təzyiqin aşağı salınmasının ən sadə üsulu 7-9 saat yuxulamaqdır. Arizona Universitetindən olan mütəxəssislər bu qənaətə gəliblər.***

Tədqiqatçıların fikrincə təzyiqin qalxmasının səbəblərindən biri də pis yatmaq və ya doyunca yatmamaqdır. Yaşı 45-ə yaxın olan 300 könüllü üzərində aparılan yeni eksperimentin gedişində alimlər yuxunun müxtəlif mərhələsinin orqanizmə effektli təsirini öyrəniblər.

Xüsusi qolbaqların köməyi ilə tədqiqatçılar sınaq iştirakçılarının vəziyyətini müəyyən ediblər. Nəticədə məlum olub ki, cihaz pis yatanlarda yüksək sistolik təzyiqi təyin edib. Bununla bərabər, yuxu hipotoniklərə təzyiqin normallaşmasında yardım edib, yəni onun nə artmasına, nə də azalmasına səbəb olub.

Nəticədə alimlər belə qənaətə gəliblər ki, təzyiqin normallaşdırılması üçün saat 23.00-dan gec olmayaraq uzanmaq və 7-9 saat yatmaq vacibdir. Bu zaman mobil qurğuları söndürmək, pərdələri sıx örtmək məsləhət görülür. Bu, yuxu hormonu deyilən melatoninin fəal şəkildə yaranmasına kömək olur.

## Piylənmə

***Piylənmə bütün yaş qruplarında rast gəlinən sağlamlıq problemlərindən biri olub orqanizmdə normadan artıq yağın toplanması nəticəsində formalaşır.***



Piylənmə və ya artıq çəki ürək-damar, insulindən asılı olmayan şəkərli diabet, yağlı qaraciyər, yüksək arterial təzyiq, bir sıra xərçəng növləri – süd vəzi, kolorektal və endometrial xərçəngləri, insult, yüksək xolesterol, sonsuzluq kimi bir çox xəstəliklərə tutulma riskini yüksəldir.

Passiv həyat tərzi, genetik meyillilik, yanlış qidalanma, yaş, sosial-iqtisadi şərait, yuxusuzluq və hamiləlik piylənməyə aparan ən önəmli risk amilləri hesab olunur.

Valideynlərdən irsən ötürülən genlər orqanizmdə toplanan yağın miqdarına və hansı bölgələrə paylanmasına təsir göstərir. Bu genlər, eyni zamanda, orqanizmin qidanı enerjiyə çevirmək effektivliyində və fiziki aktivlik zamanı nə qədər kalori sərf olunmasında rol oynayır.

Meyvə və tərəvəzlərin az qəbulu, hazır qidalara və yüksəkkalorili içkilərə meyillilik çəki artımına səbəb olur.

Əgər valideynlərdən biri və ya hər ikisinin çəkisi artıqdırsa, uşaqların piylənmə riski yüksəlir. Bu, ancaq irsiyyət ilə əlaqəli deyil, eyni zamanda, ailə üzvlərinin oxşar qidalanma və fəaliyyət vərdişlərinin olması ilə də əlaqəlidir.

Hərəkətsiz həyat tərzi nəticəsində sərf olunan kalorilərin miqdarı alınan kalorilərin miqdarından az olur ki, bu da çəki artımına gətirib çıxarır.

Sadalanan risk amillərindən bir və ya bir neçəsinə malik olmaq heç də dəqiq kök olacağınız mənasına gəlmir. Pəhriz, fiziki fəaliyyət və sağlam vərdişlər formalaşdırmaqla piylənmə riskini azaltmaq şansı əldə etmək mümkündür. Arıqlamaq və ideal çəkini saxlama strategiyalarının bir çoxu piylənmənin qarşısının alınmasında kömək edən əsas amillərdəndir. Qidalanma vərdişlərinin inkişaf etdirilməsi və gündəlik fiziki fəaliyyətin artırılması piylənmənin qarşısının alınmasında mühüm rol oynayır. Piylənmə ilə mübarizə aparmaq üçün bədən kütlə indeksini normal saxlamaq, daha çox meyvə-tərəvəz, çərəz və tam taxıllı qidalara üstünlük vermək, gündə ən azı 30 dəqiqə idman etmək, şəkərli və yağlı qidalardan uzaq olmaq, heyvan mənşəli yağların yerinə bitki mənşəli yağlara üstünlük vermək tələb olunur.

## 37 yaşlı üzgüçü La-Manş boğazını dörd dəfə fasiləsiz olaraq üzüb keçən ilk insan kimi tarixə düşüb




***Amerikalı üzgüçü, 37 yaşlı Sara Tomas La-Manş boğazını dörd dəfə fasiləsiz olaraq üzüb keçən ilk insan kimi tarixə düşüb.***

BBC xəbər verir ki, sentyabrın 15-də səhər saatlarında Fransadan üzməyə başlayan idmançı dayanmadan 54 saat üzərək İngiltərənin Dover limanına çatıb. O, sol ayağında qıcolma hiss etsə də məsafəni uğurla başa çatdırıb.

Sahilə çıxan üzgüçü BBC-yə açıqlamasında deyib: "Çox yoruldum. Bunu bacardığıma inana bilmirəm".

Sara Tomas bu qələbəsini xərçəng xəstəliyindən əziyyət çəkən və ona qalib gələn insanlara həsr etdiyini deyib. Amerikalı marafon üzgüçüsünə 2017-ci ildə xərçəng diaqnozu qoyulub. O, bir il davam edən müalicədən sonra bu xəstəliyə qalib gəlib. Sara Tomas bundan əvvəl 2007-ci, 2012-ci və 2016-cı illərdə La-Manş boğazını üzərək keçib.



Fransa ilə Böyük Britaniyanı ayıran La-Manş boğazı Şimal dənizini Atlantik okeanı ilə birləşdirir. Uzunluğu 558 kilometr olan boğazın eni 33,3 kilometrdən 240 kilometrədək dəyişir.

### Etibarsız sayılır

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin mülkiyyətində olan "İsrafil Hüseynov" (IMO №8705125) gəmisinə məxsus 28 aprel 2017-ci il tarixli 05-saylı "Gəmi Tarixinin Fasiləsiz Qeydləri" (CSR №05) sənədi itdiyi üçün etibarsız sayılır.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152

TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
12-36 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 3251